RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 220 (9965) 14 oktyabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# SÜLH NAMİNƏ



## Prezident İlham Əliyev Misirə işgüzar səfərə gedib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün oktyabrın 12-də Misirə işgüzar səfərə gedib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Şarm əl-Şeyx şəhərindəki Beynəlxalq Konqres Mərkəzinə gəlib.

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi dövlətimizin başçısını salamladı.

Sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dövlətimizin başçısını salamladı.

Daha sonra Azərbaycan və ABŞ prezidentləri birgə foto çəkdirdilər.

Yaxın Şərq Sülh Sammitinin iştirakçıları birgə foto çəkdirdilər.

Sonra sülh sazişinin imzalanması mərasimi oldu.

2

## İspaniyanın Kralı əlahəzrət VI Felipeyə

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İspaniya xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 oktyabr 2025-ci il*

## S.H.Əliyevanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə Sevil Heydər qızı Əliyeva "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 oktyabr 2025-ci il*



## Azərbaycan-Rusiya: konstruktiv dialoq, normallaşan münasibət

Azərbaycan və Rusiya prezidentlərinin görüşü göstərdi ki, tərəflər hadisələrə emosiyalardan deyil, təmkinli və rasional müstəvidən yanaşmaq xəttinə sadiqdirlər. Görüşdə aparılan müzakirələr ikitərəfli münasibətlərin tam normallaşması istiqamətində əhəmiyyətli oldu.

Hər iki liderin davranışı göstərdi ki, qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq prinsipləri bu münasibətlərin əsasını təşkil edir.

Etiraf edək ki, məlum təyyarə olayından, ardınca Rusiyada soydaşlarımıza qarşı zorakı tərzdə aparılan əməliyyatlardan, nəticədə iki ölkə arasında münasibətlərin xeyli soyuqlaşmasından Azərbaycanı və Rusiyanı qətiyyən istəməyən bəzi dairələr istifadə etməyə çalışırdılar.

5

## "Qlobal münaqişələrin həllində Prezident İlham Əliyevin məsləhətləri və tövsiyələri nəzərə alınır"

Prezident İlham Əliyevin son günlər müxtəlif coğrafiyaları əhatə edən beynəlxalq və regional tədbirlərdə iştirakı diversifikasiya olunmuş xarici siyasətin təzahürüdür: "Prezidentin şəxsi nüfuzunun, ona olan ehtiramın, onun beynəlxalq dialoqlarda fəal iştirakının diplomatik münasibətlərimizdə böyük rolu var. Dövlətimizin başçısı dünya liderleri sırasında, dünyanın ən uzunmüddətli münaqişələrindən birinin həlli yolunda ən önəmli mərhələ olan razılaşmanın imzalanacağı sammitə dəvət alıb. ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevə xüsusi rəğbət bəsləyir və onu tədbirə dəvət edib. Azərbaycan artıq öz ərazisində münaqişəyə son qoyub, sülhpərvər ölkə kimi tanınıb. Regionda yeni mərhələ, yeni reallıq yaradıb. İndi isə qlobal təhlükəsizlik və sabitliyə töhfə verir. Azərbaycan artıq regional oyunçudan qlobal məsələlərlə məşğul olan etibarlı tərəfə çevrilir".

5




## Yaxın Şərqdə sülhün təminatı və Azərbaycan təcrübəsi

### Prezident İlham Əliyevin Misir Sammitinə dəvət edilməsi bu amildən doğur

Azərbaycan özünün praqmatik siyasi xətti və iqtisadi inkişafı ilə dünya birliyində layiqli yerini tutub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan artıq regional oyunçu statusundan çıxaraq, qlobal səviyyədə problemlərin həllində iştirak edən ölkəyə çevrilməkdədir. Ümumiyyətlə, xarici siyasətin düzgün müəyyənləşdirilməsi və icrası dünyanın mürəkkəb və həssas bölgəsində - coğrafi baxımdan Qərb və Şərqin kəsişməsində, sivilizasiyaların qovuşma məkanında, strateji yanaşmalarda isə geosiyasi və geoiqtisadi maraqların üst-üstə düşdüyü ərazidə yerləşən Azərbaycan üçün həm ötən dövrlərdə, həm də indi müstəsna əhəmiyyətə malikdir. Məhz bu siyasət nəticəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu və nüfuzu yetərincə yüksəkdir.

7



◆ Azərbaycan Prezidenti İlham Əliyevin Misirə işgüzar səfəri

# SÜLH NAMİNƏ

## Şarm əl-Şeyx şəhərinin beynəlxalq aeroportunda qarşılanma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün oktyabrın 12-də Misirə işgüzar səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, Şarm əl-Şeyx şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Misirin gənclər və idman naziri Əşrəf Subhi və digər rəsmi şəxslər qarşıladılar.



## Azərbaycan Prezidenti İlham Əliyev Şarm əl-Şeyx şəhərində Yaxın Şərq Sülh Sammitində iştirak edib












**Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misirdə işgüzar səfərdə olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı oktyabrın 13-də sammitin keçirildiyi Şarm əl-Şeyx şəhərindəki Beynəlxalq Konqres Mərkəzinə gəldi.

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi dövlətimizin başçısını qarşıladı, sonra birgə foto çəkdirildi.

Daha sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dövlətimizin başçısını salamladı.

Azərbaycan və ABŞ prezidentləri birgə foto çəkdirdilər.

Sonra Yaxın Şərq Sülh Sammitinin iştirakçıları birgə foto çəkdirdilər.

Sammitdə Prezident Donald Tramp Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünə toxunaraq dedi: "Budur, mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Azərbaycan, işimi bəyəndinizmi? Bəs Sizin həmkarınız haradadır? Budur, buradadır. Siz ikiniz artıq yola gedirsiniz, elə deyilmi? Onlar 32 il müharibə etdilər, biz isə bir saata bu məsələni həll etdik, elədirmi? İndi onlar yola gedirlər, bu yaxşıdır, düşünürəm ki, bu əladır.

❖ ❖ ❖

Sonra sülh sazişinin imzalanması mərasimi oldu.

❖ ❖ ❖

İmzalanma mərasimindən sonra bəyanatla çıxış edərkən ABŞ Prezidenti Donald Tramp Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlərə toxunaraq bildirdi: "Burada Ermənistan və Azərbaycan var. Biz bu müharibəni bitirdik. Mənim onlarla görüşüm Oval ofisdə baş tutdu. Onlar 31 il vuruşdular, ağlasığmaz bir rəqəmdir. Oval ofisdə bir-birinə əks tərəfdə əyləşmişdilər. Bir saatdan sonra işimiz bitəndə hər ikisi bir-birini qucaqlayırdı. İndi də onlar dostdurlar və çox gözəl anlaşırlar. Ona görə də hər ikinizə təşəkkür etmək istəyirəm. Bu, həqiqətən, inanılmazdır. Çox sağ olun".

# Azərbaycan dəmir yolu nəqliyyatı işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dəmir yolu nəqliyyatının inkişafında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Cəfərov Şamil Rəcəb oğlu
Qocayev Telman Rza oğlu
Mustafayev İlqar Abdulməcid oğlu
Talıbov Şəmsəddin İsmayıl oğlu

**"Tərəqqi" medalı ilə**

Boqolyubova Aleksandra Vladimirovna
Cabbarov Elxan Məhəmməd oğlu
Cəfərov Kazım Novruz oğlu
Əfəndi-zadə Məmməd Şamil oğlu
Gülmaliyev Rafiq Məhərrəm oğlu
Hidayətov Arif Ramiz oğlu
Kazımov Kazım Silahdar oğlu
Kərimov Hikmət Şirəli oğlu
Kərimov Pənah Sabir oğlu
Quliyev Nicat Tofiq oğlu
Məmmədov Vəfadar Şikar oğlu
Muradov Elyar Həbib oğlu
Nəzərov Afiq Allahşükür oğlu
Pənahov Məhəmməd Yaqub oğlu
Şixəmirov Mədəd Aydın oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 oktyabr 2025-ci il*

# "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 296** **Bakı şəhəri, 9 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121 (Cild I); 2024, № 1, maddə 116, № 4, maddə 471, № 10, maddə 1180, № 11, maddə 1253, № 12 (II kitab), maddə 1461) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.6-cı bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 315 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkəsinə dair Qaydalar"a" sözləri ilə əvəz edilsin;

1.2. 6.3-cü bənddə "Elektrik qurğularının quraşdırılması Qaydası"na, "Elektrik və istilik qurğularının texniki istismar Qaydası"na və "Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası"na" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü və 36.3-cü maddələrinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması, elektrik qurğularının texniki istismar və elektrik qurğularının istismarında təhlükəsizlik texnikası qaydalarına" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 36 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 299 (Cild I) ilə təsdiq edilmiş "Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair Tələblər"in 3.2.8-ci yarımbəndinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 3.2.9-cu yarımbəndi ləğv edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 301 (Cild I) ilə təsdiq edilmiş "Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası"nın 2.1.8-ci yarımbəndində "istilik enerji" sözləri "elektrik" sözü ilə, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 dekabr tarixli 520 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının texniki istismar Qaydası"nın 3.10.3.10-cu yarımbəndi" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 36.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının texniki istismar qaydaları" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 sentyabr tarixli 346 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1367 (Cild I); 2024, № 3, maddə 312, № 9, maddə 1064) ilə təsdiq edilmiş "Aktiv istehlakçının dəstəklənməsi mexanizminin tətbiqi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarının" sözləri ilə əvəz edilsin;

4.2. 3.2-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 315 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkəsinə dair Qaydalar" sözləri ilə əvəz edilsin;

4.3. 4.1-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydaları" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 400 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1563 (Cild I); 2024, № 3, maddə 333) ilə təsdiq edilmiş "Tikinti obyektlərinə tələb olunan gücün hesablanması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.2-ci bənddə "2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarının" sözləri ilə əvəz edilsin;

5.2. 1.8-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın 6.3.3.15-ci yarımbəndinin tələblərinə uyğun olaraq, gücdən istifadə əmsalı ($K_{ist}$) 1,0-a bərabər qəbul edilir" sözləri "gücdən istifadə əmsalı "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarına əsasən Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən müəyyən edilir" sözləri ilə əvəz edilsin;

5.3. 2.1-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın 6.3.3.15-ci yarımbəndinə uyğun olaraq, gücdən istifadə əmsalını 1,0-a bərabər qəbul etməklə" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarına əsasən Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən müəyyən edilən gücdən istifadə əmsalına uyğun" sözləri ilə əvəz edilsin;

5.4. 3.18-ci bəndin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"Ümumi təyinatlı elektrik şəbəkələrinə qoşulan elektrotexniki qurğuların güc əmsalı və xarici işıqlandırma qurğularının güc əmsalı "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarına əsasən Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən müəyyən edilən güc əmsallarından aşağı olmamalıdır.";

5.5. 4.6-cı bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın 1.3.2-ci yarımbəndinə" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydalarına" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 261 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 599) ilə təsdiq edilmiş "Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair Tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.6-cı bənddə "2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının quraşdırılması qaydaları" sözləri ilə əvəz edilsin;

6.2. 3.6-cı bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 41 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası"nın" sözləri "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 36.3-cü maddəsinə uyğun olaraq, elektrik qurğularının istismarında təhlükəsizlik texnikası qaydalarının" sözləri ilə əvəz edilsin.

7. Bu Qərar 8-ci hissəsi nəzərə alınmaqla, 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

8. Bu Qərarın 1.1-ci və 4.2-ci bəndləri 2025-ci il iyulun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Naftalan neftinin çıxarılması, emalı, saxlanılması və sanatoriya-kurort müəssisələrinə paylanılması Qaydaları"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 297** **Bakı şəhəri, 9 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 308 nömrəli Sərəncamının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Naftalan neftinin çıxarılması, emalı, saxlanılması və sanatoriya-kurort müəssisələrinə paylanılması Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi Beynəlxalq Hakimlər Assosiasiyasının Bakı şəhərində keçirilən 67-ci illik iclasında səmimi-qəlbdən salamlayır, ədalət mühakiməsinin inkişafına və hakimlərin müstəqilliyinin təmin olunmasına həsr edilən bu mötəbər tədbirin işinə uğurlar arzulayıram.

Özündə 100-ə yaxın ölkənin milli hakimlər assosiasiyalarını birləşdirən Beynəlxalq Hakimlər Assosiasiyası yarandığı gündən bəri hakimlərin müstəqilliyinin müdafiəsi, qanunun aliliyinin möhkəmləndirilməsi, ədalət mühakiməsinin keyfiyyət və səmərəliliyinin artırılması istiqamətində mühüm təşəbbüslərə imza atmış vacib təsisata çevrilmişdir. Bu gün Beynəlxalq Hakimlər Assosiasiyası eyni zamanda hüquqi dövlət quruculuğunun əsas dayaqlarından biri olan məhkəmə sisteminin təkmilləşdirilməsi üçün beynəlxalq dialoq və əməkdaşlıq məkanı rolunu oynayır.

Azərbaycanın Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasına evsahibliyi etmək hüququnu qazanması ölkəmizin qlobal nüfuzunun göstəricisi, beynəlxalq hüquq ictimaiyyəti tərəfindən onun məhkəmə-hüquq sisteminə olan inam və etimadının əyani təzahürüdür.

Bu mötəbər tədbirin məhz bu il Azərbaycanda keçirilməsi ölkəmiz və bütün hüquq ictimaiyyətimiz üçün xüsusi rəmzi məna daşıyır. 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan olunmuşdur. 30 il əvvəl - 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış Konstitusiyada təsbit olunmuş prinsiplər əsasında ölkəmizdə müstəqil, üçpilləli məhkəmə sistemi formalaşmış, hakimiyyət bölgüsü, insan hüquqlarının qorunması və qanunun aliliyi dövlət idarəçiliyinin əsas dayaqlarından birinə çevrilmişdir. Azərbaycan işğal altında olan torpaqlarını azad edərək Əsas Qanunda ali niyyət olaraq bəyan edilmiş ərazi bütövlüyünü və suverenliyini təmin etməyə nail oldu.

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu dövlət siyasətimizin strateji prioritetlərindən biridir. İnsan hüquqlarının müdafiəsinin əsas təminatçısı kimi ədalət mühakiməsinin rolunun daha da möhkəmləndirilməsi istiqamətində Azərbaycanda genişmiqyaslı tədbirlər görülür. Ölkəmizdə həyata keçirilən ardıcıl islahatlar nəticəsində məhkəmə fəaliyyətinin səmərəliliyi artırılmış, vətəndaşların ədalət mühakiməsinə müraciət imkanları genişləndirilmiş, hakimlərin müstəqilliyi möhkəmləndirilmişdir. Eyni zamanda informasiya texnologiyalarının və rəqəmsal həllərin tətbiqi ilə məhkəmə idarəçiliyində şəffaflıq və çeviklik təmin olunmuş, vətəndaşların məhkəmələrə əlçatanlığının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunlar cəmiyyətdə ədalət mühakiməsinə inamın güclənməsinə, məhkəmələrin hüquqi dövlətin əsas sütunlarından biri kimi mövqeyinin möhkəmlənməsinə xidmət etmişdir.

Müasir dövrün çağırışları, qlobal miqyasda baş verən sosial-iqtisadi transformasiya, sürətlə inkişaf edən rəqəmsallaşma, yeni texnologiyaların, xüsusilə də süni intellektin tətbiqi məhkəmə sistemlərindən daim adaptasiya olunmağı, yeni yanaşmaları tətbiq etməyi tələb edir. Bu baxımdan, Beynəlxalq Hakimlər Assosiasiyasının illik iclasları müasir reallıqlar fonunda məhkəmə-hüquq sistemlərinin gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi, onların qarşısında duran çağırışlara cavab verilməsi üçün faydalı təcrübə mübadiləsi və səmərəli dialoq platformasıdır.

Əminəm ki, Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasında aparılacaq fikir mübadiləsi, qəbul ediləcək tövsiyələr və nəticələr hakimlərin müstəqilliyinin möhkəmlənməsinə, ədalət mühakiməsinin keyfiyyətinin artırılmasına, qanunun aliliyinin və insan hüquqlarının müdafiəsinin daha etibarlı təmin olunmasına, eləcə də beynəlxalq həmrəyliyin inkişafına mühüm töhfələr verəcəkdir.

Sizi Bakıda bir daha ürəkdən salamlayır, 67-ci illik iclasın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 oktyabr 2025-ci il*

# Azərbaycan və Rusiyanın Baş nazirlərinin müavinləri Bakıda görüşüblər

**Oktyabrın 13-də Bakıda Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ilə Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk arasında görüş keçirilib.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının müxtəlif istiqamətlərdə mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin 10 faizdən çox artdığı qeyd edilib, bu müsbət dinamikanın cari ildə də davam etdiyi və 8 ay ərzində qarşılıqlı ticarətin ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,5% artaraq 3 milyard 350 milyon dollar olduğu vurğulanıb.

"Şimal-Cənub" dəhlizi ilə daşımaların həcmi 2025-ci ilin 9 ayı ərzində 8,3 faiz artıb. Bunun 10,4 faizi avtomobil, 2 faizi isə dəmir yolu daşımalarının payına düşür.

Bu ilin 8 ayı ərzində Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının ixracında 15% artım müşahidə olunub ki, bunun da 23 faizi meyvə-tərəvəz məhsullarının payına düşür.

Tərəflər investisiyalar, sənaye, nəqliyyat-tranzit, energetika, gömrük və digər sahələrdə həyata keçirilən birgə layihələrin gedişindən məmnunluq ifadə ediblər.

Nəqliyyat əlaqələrinin möhkəmləndirilməsi kontekstində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsi məsələsinə xüsusi diqqət yetirilib, dəhliz boyunca infrastrukturun genişləndirilməsi işlərinin sinxron şəkildə həyata keçirilməsinin və yük axınlarının davamlı artımının təmin edilməsinin önəmi vurğulanıb.

Görüş zamanı həmçinin əməkdaşlığın mövcud potensialından səmərəli istifadə olunması, qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi və yeni birgə təşəbbüslərin reallaşdırılması imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda Bakıda keçirilən Azərbaycan-İran-Rusiya üçtərəfli görüşünün əhəmiyyətinə toxunulub, aparılan danışıqların və qəbul edilən qərarların əməkdaşlığın müvafiq sahələrdə daha da möhkəmlənməsinə töhfə verməklə, hər üç ölkə üçün və ümumilikdə region üçün faydalı olacağına əminlik ifadə olunub.

# Bakıda Azərbaycan-İran əməkdaşlığının aktual məsələləri müzakirə olunub

**Oktyabrın 13-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev İran İslam Respublikasının yol və şəhərsalma naziri Fərzanə Sadiqlə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə İran arasında münasibətlərin hərtərəfli inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı faydalı əməkdaşlığın gündəliyində duran aktual məsələlər, xüsusilə də nəqliyyat-tranzit, energetika, gömrük və digər sahələr ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantılarının inkişafı layihəsi çərçivəsində Araz çayı üzərində Ağbənd-Kəlalə avtomobil yolları körpüsünün və gömrük-sərhəd infrastrukturunun tikintisi üzrə işlərin yekunlaşdırılması ilə bağlı məsələlər müzakirə olunub.

Tərəflər "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsi ilə bağlı gündəlikdə duran aktual məsələləri nəzərdən keçiriblər.

Qeyd olunub ki, "Şimal-Cənub" dəhlizi ilə daşımaların həcmi 2025-ci ilin 9 ayı ərzində 8,3 faiz artıb və bunun da 10,4 faizi avtomobil, 2 faizi isə dəmir yolu daşımalarının payına düşür.

Dəhliz boyunca infrastrukturun genişləndirilməsi istiqamətində görülən işlərin uzlaşdırılmış şəkildə aparılmasının və yükdaşımaların həcminin davamlı artımının təmin edilməsinin mühüm önəm kəsb etdiyi bildirilib. Bu kontekstdə dəhlizin vacib komponenti olan Cənub Yük Terminalının tikintisi üzrə işlərin tamamlanmasının əhəmiyyəti vurğulanıb.

Həmçinin Astaraçay çayı üzərində inşa olunmuş avtomobil körpüsünün tam gücü ilə işə salınması üçün görüləcək zəruri tədbirlər barədə fikir mübadiləsi aparılıb.

Tərəflər eyni zamanda Bakıda keçirilən Azərbaycan-İran-Rusiya görüşünün üç ölkə arasında ticarət-iqtisadi, nəqliyyat və enerji əlaqələrinin daha da genişləndirilməsi baxımından önəmini qeyd ediblər.

# Milli Məclisin Sədri Sahibə Qafarova Pakistan İslam Respublikasına işgüzar səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşündə iştirak etmək üçün Pakistan İslam Respublikasına işgüzar səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İslamabad Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrini Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq, Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# İslamabadda Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşü keçirilib

**Pakistanın paytaxtı İslamabadda Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşü keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə görüşün İcraiyyə Toplantısı keçirilib.**






Tədbirdə Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova, Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq və Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş iştirak ediblər. Parlament sədrləri ölkələrimiz və parlamentlərimiz arasında yüksəksəviyyəli qardaşlıq münasibətlərinin əhəmiyyətini vurğulayaraq, bu görüşün də üçtərəfli parlament əməkdaşlığı üzrə qarşıya qoyulan məqsəd və hədəflərə çatmağımıza güclü təkan verəcəyinə inam ifadə ediblər.

İcraiyyə Toplantısında gündəlikdəki mövzularla bağlı geniş fikir mübadiləsi aparılıb. Sonra Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşünün açılış mərasimi keçirilib. Pakistan İslam Respublikasının Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq görüşü açaraq Azərbaycan və Türkiyə parlament sədrlərini salamlayıb. O, parlament platformasının ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin daha da dərinləşməsi baxımından mühüm istiqamət olduğunu vurğulayıb. Milli Assambleyanın Sədri Azərbaycan, Pakistan və Türkiyənin dost və qardaş ölkələr olduğunu qeyd edərək taleyüklü məsələlərdə üç qardaş dövlətin daim bir yerdə olduğunu bildirib. Sərdar Ayaz Sadiq Kəşmir məsələsinə münasibətdə Azərbaycan və Türkiyənin göstərdiyi qardaşlıq dəstəyinə görə təşəkkürünü ifadə edib və Pakistan xalqının bu dost münasibəti heç vaxt unutmayacağını vurğulayıb.

Xalqların və dövlətlərin beynəlxalq münasibətlər sistemində bəzən haqsızlıq və ədalətsizliklə üzləşdiyini deyən Sərdar Ayaz Sadiq qeyd edib ki, dünyada sülhün və təhlükəsizliyin, eləcə də xalqların firavanlığının təmin olunması üçün bu hallara son qoyulmalıdır. O, hər üç ölkənin parlamentarilərinin bir çox sahələrdə, o cümlədən beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığından məmnunluğunu ifadə edib.

Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova çıxışında görüşün yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Pakistan tərəfinə təşəkkürünü bildirib. Parlamentlərimizin əməkdaşlığının ortaq tarixi, mədəni, dini və mənəvi dəyərlərlə bir-birinə bağlı olan ölkələrimizin və xalqlarımızın qardaşlığına, birliyinə və həmrəyliyinə əsaslandığını söyləyən S.Qafarova vurğulayıb ki, Azərbaycan, Pakistan və Türkiyə hər zaman bir-birinin yanında olublar və bir-birini dəstəkləyiblər. Xalqımız 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyi heç bir zaman unutmayacaq. Qeyd edilib ki, Azərbaycan da bütün məsələlərdə hər zaman Türkiyəyə və Pakistana dəstək nümayiş etdirib. Cari ilin may ayında Pakistan və Hindistan arasında gərginlik zamanı Azərbaycan ilk gündən Pakistanla həmrəyliyini açıq şəkildə ifadə edib. Ölkəmiz Kəşmir məsələsinin dialoq və sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan həllini hər zaman dəstəkləyib və bunu bütün beynəlxalq platformalarda səsləndirib.

Azərbaycanın İsrail-Fələstin münaqişəsi ilə bağlı mövqeyinin də birmənalı olduğunu deyən Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan bu münaqişənin BMT-nin müvafiq qətnamə və qərarlarına uyğun olaraq, iki dövlət prinsipi əsasında həllini dəstəkləyir. Azərbaycan Milli Məclisinin təşəbbüsü ilə keçirilmiş Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Birinci Üçtərəfli Görüşündən artıq 4 il ötdüyünü, 2021-ci ildə Bakıda parlamentlərimiz arasında bu üçtərəfli əməkdaşlıq mexanizminin yaradıldığını xatırladan Sahibə Qafarova vurğulayıb ki, həmin görüş yalnız bu yeni mexanizmi təsbit edən Bakı Bəyannaməsinin qəbulu ilə deyil, həm də Azərbaycanın mədəniyyət paytaxtı - işğaldan azad edilmiş Şuşa şəhərinə səfərlə də əlamətdar olmuşdur. Sədr 2022-ci ildə Türkiyə Böyük Millət Məclisinin evsahibliyi ilə İstanbul şəhərində ikinci üçtərəfli görüşün də əhəmiyyətli müzakirələrlə və İstanbul Bəyannaməsinin qəbulu ilə yadda qaldığını qeyd edərək, bu gün isə İslamabad şəhərində üçüncü üçtərəfli görüşün keçirildiyini, artıq bu platformanın parlamentlərimiz arasında uğurlu və davamlı əməkdaşlıq platforması kimi formalaşdığını, o cümlədən ikitərəfli və çoxtərəfli əlaqələrimizin daha da genişlənməsinə mühüm töhfə verdiyini söyləyib.

S.Qafarovanın sözlərinə görə, qanunvericilik orqanlarımızın Parlamentlərarası İttifaq, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı, Asiya Parlament Assambleyası kimi beynəlxalq parlament təşkilatları çərçivəsində davamlı təması, qarşılıqlı maraq doğuran məsələlər üzrə birgə fəaliyyətimiz və bir-birimizə dəstəyimiz də məmnunluq doğurur. Spiker deyib ki, vacib platformalardan biri də Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsidir. Sahibə Qafarova Pakistan Milli Assambleyası və Senatının Şəbəkənin üzvü, Türkiyə Böyük Millət Məclisinin isə xüsusi qonaq qismində təşkilatın işini fəal şəkildə dəstəklədiklərinə görə onlara təşəkkür edib.

Spiker qeyd edib ki, bu gün ölkələrimizin beynəlxalq səviyyədə nümayiş etdirdikləri güclü birlik və həmrəylik yalnız onların qardaşlığının, ortaq maraqlarının ifadəsi deyil. Bu, eyni zamanda beynəlxalq hüququn, haqq və ədalət prinsiplərinin mütləqliyinə əsaslanan yanaşmadır. Sədrin sözlərinə görə, bu, əslində, beynəlxalq aləmə də bir çağırışdır. Məhz belə yanaşma beynəlxalq ictimaiyyəti sülh, təhlükəsizlik və tərəqqi üzərində qurulacaq daha parlaq gələcək naminə qarşılıqlı hörmət əsasında birgə fəaliyyətin gücləndirilməsinə səsləyir.

Sahibə Qafarova vurğulayıb ki, sülh, təhlükəsizlik və tərəqqi bilavasitə bir-biri ilə əlaqəli olan amillərdir. 44 günlük Vətən müharibəsinin 5-ci ildönümünü qeyd etdiyimiz indiki dövrdə Azərbaycan öz fəaliyyəti ilə bunu bir daha təsdiq edir. O xatırladıb ki, ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən 20 faizi 30 il ərzində Ermənistanın işğalı altında idi. Bu 30 il ərzində yüzlərlə şəhər və kəndlərimiz, tarixi, dini və mədəni abidələrimiz darmadağın edildi, bir milyon azərbaycanlı öz doğma torpaqlarından didərgin salındı. ATƏT-in Minsk qrupu adlandırılan vasitəçilər isə beynəlxalq hüququn norma və prinsiplərinin icrasını təmin edə bilmədilər.

Azərbaycanın 2020-ci ildə öz ərazi bütövlüyünü, 2023-cü ildə isə suverenliyini bərpa etdiyini və bununla da sülhə aparan yolun təməlini qoyduğunu vurğulayan Milli Məclisin Sədri deyib ki, müharibədən dərhal sonra məhz qalib Azərbaycan sülh təşəbbüsü ilə çıxış etdi, sülhün əsas prinsiplərini və sülh müqaviləsinin layihəsini irəli sürdü.

Sahibə Qafarova xatırladıb ki, aparılan ikitərəfli danışıqların nəticəsi olaraq, bu ilin avqustunda Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülh müqaviləsinin mətnini parafladılar. Qeyd olunub ki, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Birgə Bəyanat imzaladılar. Regional kommunikasiyaların açılmasının əhəmiyyəti təsdiq edildi.

Spikerin sözlərinə görə, Vaşinqton görüşünün əsas nəticələrindən biri Prezident İlham Əliyevin təşəbbüskarı olduğu Zəngəzur dəhlizinin açılmasıdır. Belə ki, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun reallaşması ilə Zəngəzur dəhlizi Avrasiyada mühüm nəqliyyat bağlantısına çevriləcək, regionumuzda əməkdaşlığa və tərəqqiyə xidmət edəcək. Milli Məclisin Sədri bütün bunların ilk növbədə Prezident İlham Əliyevin həyata keçirdiyi sülh diplomatiyasının, təhlükəsizlik, əməkdaşlıq və tərəqqi naminə gərgin fəaliyyətinin nəticəsi olduğunu xüsusilə vurğulayıb.

Spikerin bildirdiyinə görə, qeyd edilən proseslər fonunda qardaş ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yeni imkanların yarandığı müşahidə edilir. Ötən dövr ərzində Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlıq mexanizminin parlament, xarici işlər və müdafiə nazirlikləri səviyyəsində ardıcıl şəkildə inkişafının şahidi olduq.

Sahibə Qafarovanın sözlərinə görə, Azərbaycan və Türkiyə prezidentlərinin və Pakistanın Baş nazirinin 2024-cü ilin iyulunda Astanadakı üçtərəfli görüşü və xüsusən bu ilin mayında Azərbaycanın işğaldan azad olunmuş Laçın şəhərindəki üçtərəfli zirvə görüşü isə bu mexanizmi daha da zənginləşdirdi və keyfiyyətcə yeni bir mərhələyə qaldırdı. Həmin görüşlərdə qardaş ölkələrimiz arasındakı birlik və həmrəyliyin daha da gücləndirilməsi, üçtərəfli əməkdaşlığın siyasi, iqtisadi-ticari, nəqliyyat, enerji, müdafiə, humanitar və digər sahələrdə daha da inkişaf etdirilməsi iradəsi ortaya qoyuldu. Sahibə Qafarova qeyd edib ki, liderlərimizin bu iradəsindən irəli gələrək, parlament sədrləri səviyyəsində bu gün keçirilən üçtərəfli görüş də ölkələrimizin işbirliyinə parlament dəstəyini gücləndirmək qətiyyətimizin bir ifadəsidir. O, belə bir inamını ifadə edib ki, parlamentarilər birgə səylərlə bu məqsədə nail olacaqlar.

Sonra çıxış edən Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş tədbir iştirakçılarını salamlayaraq görüşün əhəmiyyəti ilə bağlı fikirlərini bölüşüb. O, beynəlxalq hüquqda mövcud olan problemlərin, xüsusilə ikili standartların müşahidə olunduğu bugünkü şəraitdə üç qardaş ölkə arasında əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Numan Kurtulmuş qeyd edib ki, Türkiyə, Azərbaycan və Pakistan parlamentləri ilə üçtərəfli əməkdaşlığın daha da gücləndirilməsinə böyük önəm verir. Qeyd edilib ki, qlobal problemlərə qarşı ortaq həll yollarının müəyyənləşdirilməsində parlamentlərin rolu olduqca vacibdir.

Çıxışında terror təhdidlərinə qarşı mübarizənin əhəmiyyətinə toxunan Numan Kurtulmuş deyib ki, Türkiyə dövlətlərin suverenliyini və müstəqilliyini hədəf alan terrora qarşı mübarizəyə böyük önəm verir.

O, öz çıxışında Azərbaycan və Ermənistan arasında sülh gündəliyi istiqamətində əldə olunan nailiyyətlər münasibətilə ölkəmizi və xalqımızı təbrik edib.

Pakistan İslam Respublikası Senatının Sədri Syed Yusuf Raza Gilani isə çıxışında parlamentlərin üçüncü görüşünün əhəmiyyətini vurğulayaraq, müasir geosiyasi şərait fonunda qardaş ölkələr arasında əməkdaşlığın vacibliyini, eləcə də parlamentlərarası əlaqələrin gücləndirilməsinin önəmini qeyd edib.

*"Azərbaycan"*

# Bakıda Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyası işə başlayıb

**Oktyabrın 12-də Bakı Konqres Mərkəzində Beynəlxalq Hakimlər Assosiasiyasının (IAJ - International Association of Judges) 67-ci Baş Assambleyası öz işinə başlayıb.**






AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmiz haqqında tanıtım videoçarxı nümayiş etdirilib.

Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyasının iştirakçılarına müraciətini oxuyub.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, müstəqilliyimiz bərpa olunandan sonra Azərbaycan öz məhkəmə sistemini demokratiya, qanunçuluq və ədalət prinsipləri əsasında qurmağa başladı. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiya hazırlandı, ümumxalq referendumu ilə qəbul olundu və orada hakimiyyət bölgüsü, qanunun aliliyi, insan ləyaqətinin təmin edilməsi və məhkəmə hakimiyyətinin müstəqilliyi ifadə edildi. Beləliklə, bu təməl Prezident İlham Əliyev tərəfindən həyata keçirilən davamlı islahatlarla daha da möhkəmləndirildi. Onun qətiyyətli səyləri nəticəsində ədalətin təşkili dövlətin ən dinamik dayaqlarından birinə çevrildi.

"Bu gün bütün dünyada ədalət mühakiməsi bizdən əvvəllər olmadığı qədər əməkdaşlıq etməyimizi tələb edir. Yalnız biz səylərimizi birləşdirərək, bütün limitləri aşaraq bu amallara töhfə verə bilərik. Buna görə də əməkdaşlıq qlobal məhkəmə sisteminin əsasını təşkil etməlidir. Yarım əsrdən artıq olan müddət ərzində Beynəlxalq Hakimlər Assosiasiyası öz toplantılarını keçirir və ədalət mühakiməsinin bütün dünyada daha da təkmilləşdirilməsinə xidmət edir. Bu, o cümlədən hakimlər arasındakı dialoqu daha da genişləndirməyi, məhkəmə hakimiyyətinin müstəqilliyini daha da təmin etməyi və ədalətin, qanunun aliliyinin ən ümdə bir prinsip kimi hər zaman vacib saxlamağı qeyd edir. Bu gün dünya bir tarixi yolayrıcında dayanır. Burada bir tərəfdən yeni, lakin eyni zamanda mürəkkəb çağırışlar dayanır. Biz mövcud reallığa uyğunlaşmalıyıq. Baxmayaraq ki, bu dəyərlər dəyişməz olaraq qalır. Əlimizdən gələni - heç vaxt olmadığı qədər - etməliyik ki, ədalət öz mənasını tam şəkildə təmin edə bilsin. Texnologiya və süni intellekt bu gün bizim idarəçilik işlərimizə yeniliklər gətirir. Bugünkü məhkəmə hakimiyyəti beynəlxalq hüdudları keçən məsələlərə də öz töhfəsini verməlidir. Burada iqlim dəyişiklikləri və digər bu kimi fenomenlər bizim üzərimizə ortaq məsuliyyət qoyur", - deyə İ.Kərimov qeyd edib.

Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov bildirib ki, məhkəmə hakimiyyəti hər hansı bir cəmiyyətin ən fundamental dəyərlərinin keşiyində dayanan bir qarantdır.

O, çıxışına belə davam edib: "Məhkəmə hakimiyyəti bizi hər hansı səhvlərdən qoruyur, üzərimizə düşən vəzifənin lazımi şəkildə icrasında istiqamətləndirir. Bu bizə elə imkanlar, şəraitlər yaradır ki, üzərimizə düşən vəzifəni ədalət mühakiməsi çərçivəsində həyata keçirək. Lakin yekun nəticədə məhkəmə hakimiyyətinin məqsədi ədalətin zəfər çalmasıdır. Ədalət o zaman zəfər çalır ki, o, hər hansı bir fəaliyyətin mərkəzində dayanan bünövrə kimi götürülür".

F.Əhmədov çıxışında Azərbaycanda qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları arasında əməkdaşlığın mövcudluğunu və bunun ədalət mühakiməsinin ortaya qoyulmasında əsas götürüldüyünü də diqqətə çatdırıb.

Beynəlxalq Hakimlər Assosiasiyasının prezidenti Duro Sessa isə düzgün ədalət mühakiməsinin heç zaman diqqətdən kənarda qalmamalı olduğunu bildirib.

Onun sözlərinə görə, məhkəmə hakimiyyətinin səsinin hər tərəfdə eşidilməsi üçün anlaşma və etimadın qurulmasında məhz konstitusion strukturların fəaliyyətinin tarazlı şəkildə həyata keçirilməsi önəmlidir: "Bütün bu dəyərlər çox vacibdir ki, məhkəmə hakimiyyəti müstəqilliyini qoruyub saxlaya bilsin. Bu gün bəzi hallarda siyasətçilər bizə müəyyən mesajlar verirlər. Lakin bu mesajlar birmənalı şəkildə qəbul edilməli deyil. Onlar heç bir şəkildə hər hansı bir siyasi maraqlara qurban verilməli deyil.

Nizamnaməmizə gəldikdə, təcrübəmiz göstərir ki, biz daimi şəkildə azad fəaliyyət aparmalıyıq. Həmkarlarımız adından deyil, cəmiyyətimiz adından çıxış etməliyik. Bəzi hallarda onlar bizim mövqeyimizi və mübarizəmizi anlamırlar. Biz heç zaman imkan verməli deyilik ki, qanunlar silaha çevrilsin. Onlar daha çox sipər rolunu oynamalıdır".

Daha sonra Beynəlxalq Hakimlər Assosiasiyasının "Məhkəmə müstəqilliyi mükafatı"nın təqdimetmə mərasimi keçirilib. Mükafatı Beynəlxalq Hakimlər Assosiasiyasının Baş katibi Giacomo Oberto təqdim edib.

Tədbir bədii hissə ilə davam edib.

Qeyd edək ki, assambleyanın açılış mərasimində dünyanın 71 ölkəsindən 300-ə yaxın nümayəndə - hakimlər, vəkillər, hökumət rəsmiləri və beynəlxalq təşkilatların təmsilçiləri, eləcə də tanınmış hüquqşünas-ekspertlər iştirak ediblər.

Oktyabrın 17-dək davam edəcək Baş Assambleya çərçivəsində qurumun idarəetmə orqanlarına seçkilər keçiriləcək, müxtəlif dövlətlərin məhkəmə-hüquq sistemindəki vəziyyət, mövcud problemlər və müsbət təcrübələr müzakirə olunacaq. Həmçinin ev sahibi kimi Azərbaycanın məhkəmə-hüquq sistemi ilə tanışlıq da nəzərdə tutulur.

Oktyabrın 14-də "Məhkəmə hakimiyyəti və digər hakimiyyət qolları arasındakı münasibətlər" mövzusunda beynəlxalq konfrans keçiriləcək. Konfransda qanunun aliliyinin təmin olunmasında məhkəmələrin rolu geniş şəkildə təhlil ediləcək.

Assambleya çərçivəsində həmçinin Beynəlxalq Hakimlər Assosiasiyasının prezidenti vəzifəsinə seçkilərin keçirilməsi planlaşdırılır.

Bununla yanaşı, oktyabrın 17-dək "Ədalət mühakiməsi rəmzləri" adlı sərgi təşkil olunacaq. Sərgidə dünyanın 80 ölkəsindən gətirilmiş 150-yə yaxın hakim, vəkil və dövlət ittihamçısına məxsus cübbələr, ordenlər, döş nişanları, markalar və pul əskinasları nümayiş etdiriləcək.

Xatırladaq ki, 1953-cü ildə təsis olunmuş Beynəlxalq Hakimlər Assosiasiyasının əsas məqsədi dünyada məhkəmə hakimiyyətlərinin müstəqilliyinin qorunmasıdır. Hazırda təşkilat öz sıralarında 93 ölkənin hakimlər birliklərini birləşdirir və illik toplantılarını yalnız qanunun aliliyinin və məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunduğu ölkələrdə keçirir.

Baş Assambleyanın 2025-ci ildə Bakıda keçirilməsi barədə qərar ötən il Cənubi Afrika Respublikasının Keyptaun şəhərində təşkilat üzvlərinin gizli səsverməsi yolu ilə qəbul edilib.

# Azərbaycan və Türkiyə XİN rəhbərləri Yaxın Şərqdəki vəziyyəti müzakirə ediblər

**Oktyabrın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı Yaxın Şərqdə vəziyyət və Qəzza üzrə razılaşmadan irəli gələn məsələlər müzakirə edilib. Türkiyənin bu əhəmiyyətli razılıqda oynadığı uğurlu vasitəçilik səyləri təqdir olunub.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan və Pakistan xarici işlər nazirləri arasında telefon danışığı olub

**Oktyabrın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Pakistanın Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı iki ölkə arasında mövcud və gələcək strateji tərəfdaşlıq əlaqələri, regional təhlükəsizlik, xüsusilə də Yaxın Şərqdə vəziyyət və Qəzzada atəşkəs barədə razılaşmadan irəli gələn məsələlər müzakirə edilib.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycan-Rusiya: konstruktiv dialoq, normallaşan münasibət

**MDB Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiyanın dövlət başçısı Vladimir Putin arasında keçirilmiş görüş iki ölkə arasında münasibətlərin nizama salınması, qarşılıqlı etimadın bərpası və yeni mərhələyə keçid baxımından mühüm əhəmiyyət daşıyır. Görüşün siyasi-ictimai rezonansı göstərdi ki, rəsmi Bakı və Moskva arasında münasibətlər artıq normallaşma məcrasına daxil olub.**

### Məsuliyyətin etirafı

Rusiya Prezidenti Vladimir Putin görüş zamanı müzakirələrə ötən ilin dekabrında Azərbaycan Hava Yolları Şirkətinə məxsus sərnişin təyyarəsinin Rusiya Hərbi Hava Qüvvələri tərəfindən vurulması faktı ilə başlamaq təşəbbüsündən çıxış etdi və hadisə ilə bağlı bütün suallara aydınlıq gətirməyə çalışdı. Rusiya Prezidenti hadisənin baş verdiyi ilk günlərdə Azərbaycandan buna görə üzr istədiyini xatırlatdı. Vladimir Putinin Rusiya Hərbi Hava Qüvvələrinin atəşi nəticəsində təyyarəyə qəlpələrin dəyməsini və qəzanın da məhz bu səbəbdən baş verməsini etiraf etməsi rəsmi Kremlin hadisəyə görə məsuliyyəti öz üzərinə götürməsidir. Rusiya Prezidenti bununla bağlı bəyanatında Azərbaycana dəymiş ziyana görə kompensasiya ödəniləcəyini və hadisənin baş verməsinə görə günahkar olan məsul və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcəyini, cəzalandırılacağını da vurğuladı.

Azərbaycanın da hadisənin ilk günlərindən istədiyi məhz belə bir mövqeyin açıqlanması, baş vermis hadisəyə hüquq normaları çərçivəsində, beynəlxalq praktikaya uyğun münasibət göstərilməsi idi. Bu baxımdan rəsmi Bakı faciəyə münasibətdə Rusiya qarşısında hər hansı qeyri-mümkün, yaxud fövqəladə bir tələb irəli sürmürdü. Kremlin uzun müddətdən sonra da olsa, belə bir mövqeyə gəlməsi və Rusiya Prezidentinin bu mövqeyi Azərbaycan Prezidenti ilə görüşdə çatdırması isə şimal qonşumuzun əsla zəifliyinə dəlalət etmir. Əksinə, bunu Kremlin ədalət meyarlarına, beynəlxalq hüquq normalarına, eyni zamanda Azərbaycanla qarşılıqlı etimada hörmətlə yanaşmasının göstəricisi kimi dəyərləndirmək olar.

Hərbi münaqişənin aktiv fazasında olan Rusiyanın, o cümlədən istənilən belə ölkənin səmasında bu cür faciəvi hadisələrin baş verməsindən əfsuslar olsun ki, heç kəs sığortalanmayıb. Belə durumlarda məsuliyyətin qəbul edilməsi və beynəlxalq təcrübəyə, hüquq normalarına uyğun addımların atılması isə iki ölkə arasında etimadın qorunmasına, qarşılıqlı anlayış göstərilməsinə xidmət edən konstruktiv addımdır.

### Qarşılıqlı anlayış mühiti

Azərbaycan və Rusiya prezidentlərinin görüşü göstərdi ki, tərəflər hadisələrə emosiyalardan deyil, təmkinli və rasional müstəvidən yanaşmaq xəttinə sadiqdirlər. Görüşdə aparılan müzakirələr ikitərəfli münasibətlərin tam normallaşması istiqamətində əhəmiyyətli oldu.

Hər iki liderin davranışı göstərdi ki, qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq prinsipləri bu münasibətlərin əsasını təşkil edir.

Etiraf edək ki, məlum təyyarə olayından, ardınca Rusiyada soydaşlarımıza qarşı zorakı tərzdə aparılan əməliyyatlardan, nəticədə iki ölkə arasında münasibətlərin xeyli soyuqlaşmasından Azərbaycanı və Rusiyanı qətiyyən istəməyən bəzi dairələr istifadə etməyə çalışırdılar. Əfsuslar olsun ki, belə təxribatçılar arasında Rusiyada yaşayıb fəaliyyət göstərən Simonyan, Solovyov, Zatulin kimi ermənipərəst və anti-Azərbaycan yönümlü şəxslər də vardı. Onlar iki ölkə arasında gərginliyi mümkün qədər gücləndirməyə, süni qarşıdurma atmosferi formalaşdırmağa cəhd göstərirdilər. Prezidentlərin görüşü və apardıqları konstruktiv müzakirələrlə bu cəhdlər tam iflasa uğradı. Simonyanlar, Solovyovlar, Zatulinlər öz mənfur məqsədlərinə çata bilmədilər.

Açığını desək, xalqımızı narahat edən əsas məsələlərdən biri də elə məhz Rusiyadakı bu müəyyən çevrələrin anti-Azərbaycan təbliğatı idi. Prezident Putinin media qarşısında səsləndirdiyi bəyanatlar isə Azərbaycan-Rusiya münasibətlərinin bu qüvvələrin məqsədlərinə zidd şəkildə, sağlam əsaslarda davam etdiyini sərgilədi, bu istiqamətdə aydın mesaj vermis oldu: rəsmi Moskva münasibətləri təxribatçılar yox, dövlətlərarası dostluq və qarşılıqlı maraqlar səviyyəsində qurur.

Qərbdəki bəzi dairələr və Rusiyadakı ermənipərəst qrupların təxribatçı məqsədləri bəlli idi. Onlar iki ölkə arasında "ikinci cəbhə" yaratmaq istəyirdilər. Lakin bu plan baş tutmadı. Bakı və Moskva müdriklik, qarşılıqlı etimad və təmkin nümayiş etdirərək bu sınaqdan uğurla çıxdılar.

### Qarşılıqlı maraqlara söykənən ikitərəfli münasibətlər davam edəcək

Azərbaycan və Rusiya arasında münasibətlərin normallaşması təkcə iki ölkənin deyil, bütövlükdə regionun sabitliyi üçün müsbət hadisədir. Bu proses hər iki tərəfin faydasınadır - iqtisadi, humanitar və təhlükəsizlik sahələrində daha sıx əməkdaşlıq imkanları açır.

Yaxın qonşumuz olan Rusiya əsas ticarət tərəfdaşlarımızdandır. Bu ölkə ilə ticarət dövriyyəsinin, qarşılıqlı investisiyaların daha da artması, nəqliyyat, logistika, istehsal, mədəniyyət, təhsil və digər sahələrdə birgə layihələrin gerçəkləşməsi ölkəmizin inkişaf strategiyası ilə tam uzlaşır. Eyni zamanda Rusiya üçün də regionda infrastruktura və əməkdaşlığa açıq müstəvidə təmsil olunmaq baxımından geniş imkanlar yaradır.

Azərbaycanın həm Qərb, həm region ölkələri, həm də Rusiya ilə münasibətlərdə balansı qorumaq siyasəti güclüdür. Bu görüş də Azərbaycanın Rusiya ilə bərabərhüquqlu, qarşılıqlı hörmət və faydalılıq prinsiplərinə əsaslanan əlaqələri genişləndirmək niyyətini təsdiqləmiş oldu.

### Münasibətlərin yeganə düzgün yolu

Hazırda ölkələrimiz arasında münasibətlərdə həllini gözləyən ən əsas məsələlərdən biri təbii ki, Rusiyada yaşayan və bu ölkənin vətəndaşları olan azərbaycanlılara qarşı təqiblərin dayandırılmasıdır. Prezidentlərin görüşündən sonra ehtimal olunur ki, bu məsələ üzrə aidiyyəti qurumlar, xüsusilə Rusiya hüquq-mühafizə orqanları lazımi impulsları alıblar və münasibətlərin normallaşması bu istiqamətdə də nizam yaradacaq.

Atılacaq addımlar Rusiya dövlətinin həm öz çoxmillətli cəmiyyətinə, həm də Azərbaycanla dostluq münasibətlərinə sadiqliyinin real göstəricisi olacaq.

Azərbaycan və Rusiya prezidentlərinin görüşü bir daha göstərdi ki, emosiyadan uzaq, diplomatik və səmimi dialoq iki qonşu ölkə arasındakı münasibətlərin yeganə düzgün yoludur. Hadisələrin gedişi bir daha sübut etdi: təxribatlara uymayan, məsuliyyətli və realist siyasət həm Azərbaycan, həm də Rusiya üçün faydalıdır.

Münasibətlərin normallaşması iki ölkənin gələcəyinə, regionun sabitliyinə və xalqların rifahına yönəlmiş ortaq qalibiyyət kimi qiymətləndirilməlidir.

Bütün bunlar son onilliklərdəki bütün mürəkkəb proseslərin, kombinasiyaların qalibi olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daha bir nailiyyətidir. Belə nəticələrin hər biri fədakar zəhmət, "dəmir iradə", sarsılmaz səbir və qətiyyət sayəsində başa gəlir.

Azərbaycan Prezidenti İlham Əliyevin son bir neçə gündə 3 fərqli coğrafiyada baş tutan mötəbər tədbirlərdə - Avropa Siyasi Birliyinin Danimarkanın Kopenhagen şəhərində keçirilən Zirvə toplantısında, daha sonra ölkəmizin evsahibliyi ilə Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilən Zirvə görüşündə, ardınca MDB Dövlət Başçıları Şurasının təşkil olunmuş toplantısında iştirakı, oktyabrın 12-də isə Misir Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak üçün Misirə işgüzar səfəri dövlət rəhbərimizin nəhəng coğrafiyaları əhatə edən gərgin iş qrafikinin göstəricisidir. Bu tədbirlərdə Azərbaycanın oynadığı mühüm rol, cənab İlham Əliyevin şəxsiyyətinə böyük rəğbət müstəqil dövlətimizin, dövlət rəhbərimizin müasir dünya düzənindəki lider mövqeyinin, qlobal proseslərə təsir gücünün ifadəsidir. Getdikcə artan gücü, qüdrəti ilə Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında bundan sonra da böyük tarixi nailiyyətlərə imza atacaqdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## "Qlobal münaqişələrin həllində Prezident İlham Əliyevin məsləhətləri və tövsiyələri nəzərə alınır"

**Azərbaycan beynəlxalq münasibətlər sistemində çoxşaxəli və balanslaşdırılmış siyasət yürüdərək həm regional, həm də qlobal miqyasda etibarlı tərəfdaş kimi tanınır. Bu siyasətin əsas məqsədi müxtəlif coğrafi və siyasi bloklar arasında balans yaratmaqla ölkənin milli maraqlarını qorumaq və beynəlxalq nüfuzunu gücləndirməkdir. Hətta aralarında ziddiyyətlər olan ölkələrlə Azərbaycan münasibətləri qarşılıqlı fayda əsasında qoruyur. Bununla da ölkəmiz geosiyasi rəqabət meydanında körpü rolunu oynayır.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin son günlər müxtəlif coğrafiyaları əhatə edən beynəlxalq və regional tədbirlərdə iştirakı diversifikasiya olunmuş xarici siyasətin təzahürüdür: "Prezidentin şəxsi nüfuzunun, ona olan ehtiramın, onun beynəlxalq dialoqlarda fəal iştirakının diplomatik münasibətlərimizdə böyük rolu var. Dövlətimizin başçısı dünya liderleri sırasında, dünyanın ən uzunmüddətli münaqişələrindən birinin həlli yolunda ən önəmli mərhələ olan razılaşmanın imzalanacağı sammitə dəvət alıb. ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevə xüsusi rəğbət bəsləyir və onu tədbirə dəvət edib. Azərbaycan artıq öz ərazisində münaqişəyə son qoyub, sülhpərvər ölkə kimi tanınıb. Regionda yeni mərhələ, yeni reallıq yaradıb. İndi isə qlobal təhlükəsizlik və sabitliyə töhfə verir. Azərbaycan artıq regional oyunçudan qlobal məsələlərlə məşğul olan etibarlı tərəfə çevrilir".



Deputat qeyd edib ki, qlobal münaqişələrin həllində Prezident İlham Əliyevin məsləhətləri və tövsiyələri nəzərə alınır, dövlətimizin başçısının təcrübəsindən faydalanırlar: "Misirin Şarm-əl-Şeyx şəhərində keçiriləcək Yaxın Şərq Sülh Sammiti çoxdandır sülhü gözləyən müharibədə razılaşma ehtimalı böyük olan, məhdud sayda dövlət, hökumət başçılarının iştirakı ilə baş tutub. Sammitin məqsədi Qəzza zolağında müharibəyə son qoymaq, Yaxın Şərqdə sülh və sabitliyə nail olmaq üçün səyləri artırmaq və regional təhlükəsizlik və sabitliyin yeni dövrünü açmaqdır. Çox qürurlu faktdır ki, Prezident İlham Əliyev bu mötəbər sammitdə iştirak edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Prezident İlham Əliyevin Yaxın Şərq Sülh Sammitinə dəvət olunması Azərbaycanın qlobal problemlərin həllinə verdiyi töhfənin növbəti təsdiqidir

**Dünən Misirdə yalnız Yaxın Şərqin deyil, dünyanın gələcək taleyinin həll olunacağı sammit öz işinə başladı. Şarm-əl-Şeyxdə Qəzza bölgəsinin gələcəyi ilə əlaqədar təşkil olunan sammitdə qlobal siyasətdə söz sahibi olan dövlətlərin başçıları iştirak edirlər. Azərbaycan Prezidenti İlham Əliyevin də bu sammitə dəvət olunması xüsusilə əlamətdar hadisədir.**



ABŞ Prezidenti Donald Trampın təşəbbüsü və Misir Prezidenti Abdülfəttah əs-Sisinin təşkilatçılığı ilə keçiriləcək yüksəksəviyyəli siyasi tədbirdə Fransa Prezidenti Emmanuel Makron, Böyük Britaniyanın Baş naziri Kir Starmer, İtaliya Nazirlər Şurasının Sədri Corcia Meloni, İspaniyanın Baş naziri Pedro Sançes, həmçinin Yaponiya, Hindistan, Kanada, Yunanıstan, Bəhreyn, Əl-Küveytin, Qətər və İordaniyanın xarici işlər nazirləri, eləcə də BMT və Avropa İttifaqının təmsilçiləri iştirak edəcəklər.

Sammitdə İsrail-Fələstin münaqişəsinə son qoyulması, Qəzza bölgəsinin müharibədən sonra bərpası, dayanıqlı sülhün əldə olunması kimi məsələlər müzakirə ediləcək. Son onillikdə Yaxın Şərqdə baş verən geosiyasi proseslər Suriya, İraq, Liviya kimi dövlətlərdə vətəndaş müharibələrinin başlamasına, hakimiyyətlərin zorla devrilməsinə və bunların nəticəsində milyonlarla insanın qaçqın düşməsinə səbəb olub. İsrail ilə Fələstin arasındakı münaqişə artıq dünyanı narahat edən bir vəziyyətə çatıb ki, bunu da ABŞ Prezidenti Donald Tramp həll edərək regionda sülhə nail olmaq qərarına gəlib. Onun buna nə dərəcədə nail olacağını zaman göstərəcək. Lakin Prezident D.Trampın təşəbbüsü dünya liderləri tərəfindən məmnunluqla qarşılanıb.

Rəsmi Vaşinqtonun təklif etdiyi plana əsasən, Qəzza bölgəsi HƏMAS ilə əlaqəsi olmayan mülki administrasiyanın rəhbərliyinə veriləcək. Bu administrasiya Fələstin muxtariyyətinə sadiq olacaq və beynəlxalq nəzarət altında, Körfəz ölkələrinin maliyyə dəstəyi ilə fəaliyyət göstərəcək.

Sammitdə həmçinin beynəlxalq nəzarət mexanizmi, terror təşkilatlarının hakimiyyətə buraxılmaması, dağıdılan infrastrukturun bərpası və bunların həyata keçirilməsi üçün xüsusi fondun yaradılması məsələləri müzakirə olunacaq. Bunlarla yanaşı, Qəzza, Misir və İsrail arasındakı sərhəd-keçid məntəqələrinin nəzarətdə saxlanılması, Misir, İordaniya və ABŞ arasında əlaqələndirici strukturun yaradılması tədbirlərinə də toxunulacaq.

Tədbir uzun sürən və minlərlə insan tələfatının, humanitar böhranın qarşısının alınması baxımından sülhün bərqərar olması üçün imkandır. Ağ Evin tədbirlə bağlı bəyanatında deyilir: "Bu sammit dönüş nöqtəsi olaraq, regional sabitlik epoxasının əsasını yaradacaq". Misir isə sammit vasitəsilə ərəb dünyası ilə beynəlxalq birlik arasında əlaqələndirici olduğunu nümayiş etdirəcək.

Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp tərəfindən sammitə şəxsən dəvət olunması isə artıq Azərbaycanın qlobal siyasətdə özünəməxsus yer tutduğunu göstərir. ABŞ-də ikinci dəfə Prezident seçilən D.Tramp dünyada baş verən münaqişələrə son qoymaqda qərarlıdır. Bu ambisiyaların reallaşması üçün yaxın müttəfiqlər və geniş dünyagörüşünə malik liderlər lazımdır.

Xatırladaq ki, bu il avqustun 8-də Prezident D.Trampın təşəbbüsü və iştirakı ilə Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçirildi, iki dövlət arasında sülhə nail olmaq istiqamətində sənəd imzalandı. Bu görüşdə ABŞ rəhbəri Prezident İlham Əliyevlə birbaşa ünsiyyətdə olaraq onun praqmatik və sülh istiqamətində addımlarını təqdir etdi. Azərbaycanın 44 günlük Vətən müharibəsində Zəfər qazanması rəsmi Bakının hərbi əməliyyatlar apararaq yalnız işğal altında olan torpaqlarını geri qaytarmasını deyil, ədalətin bərpası üçün həyata keçirdiyi tədbirlərin zəruriliyini göstərdi. Bu baxımdan Prezident İlham Əliyevin Prezident D.Tramp tərəfindən Yaxın Şərq Sülh Sammitinə dəvət alması təsadüfi xarakter daşımır. Azərbaycanın Suriyaya yardım məqsədilə onun enerji təminatına dəstək verərək, bu ölkəyə təbii qaz ixrac etməsi faktı Prezident İlham Əliyevin humanist baxışlarını göstərməklə yanaşı, sülhə doğru addım atan siyasi liderlik qabiliyyətində olduğunu da nümayiş etdirdi. Bütün bunlar Azərbaycan Prezidentinin dünya liderləri arasında sülhsevər dövlət başçısı kimi nüfuzunu möhkəmləndirir.

Azərbaycan özünün praqmatik siyasi xətti və iqtisadi inkişafı ilə dünya birliyində layiqli yerini tutub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan artıq regional oyunçu statusundan çıxaraq, qlobal səviyyədə problemlərin həllində iştirak edən ölkəyə çevrilməkdədir. Bunu şərtləndirən əsas amil isə Azərbaycanın Qarabağı işğaldan azad edərək beynəlxalq təşkilatların da həll edə bilmədiyi problemi necə aradan qaldırmaq lazım olduğunu göstərməsidir.

# Azərbaycanın xarici siyasətinin uğurları

**Azərbaycanın liderliyi ilə Cənubi Qafqazda həyata keçirilən sülh prosesi artıq öz məntiqi sonluğuna, yəni barış sazişinin imzalanmasına yaxınlaşır. Avqustun 8-də Vaşinqtonda - Ağ Evdə Ermənistan-Azərbaycan arasında sülh sazişi mətninin paraflanması ilə bölgədə normallaşma və əməkdaşlıq üçün geniş imkanlar açılıb.**



## Solovyovların, zatulinlərin niyyətləri gözlərində qaldı

Milli maraqlarının təmini istiqamətində yürütdüyü müstəqil və qətiyyətli siyasət nəticəsində beynəlxalq hüququn prinsip və normalarına uyğun ərazi bütövlüyünü və suverenliyini təmin edən Azərbaycanın ortaya qoyduğu sülh modeli dünyada da böyük təqdir və rəğbətlə qarşılanır. Prezident İlham Əliyevin son 20 günə yaxın müddət ərzində müxtəlif nüfuzlu tribunalardan ölkəmizin həqiqətlərini çatdırması, istər Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı, istər Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı etdiyi çıxışlar, istərsə də Kopenhagendə keçirilən "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısındakı mühüm görüşləri zamanı verdiyi mesajlarla dünyada əbədi sülhün bərqərar olması üçün mühüm çağırışlar edib.

BMT TŞ-nin qətnamələrini özü yerinə yetirərək Cənubi Qafqazda davamlı sülhə rəvac verən ölkənin lideri kimi Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etməsinin də bu baxımdan təsadüfi xarakter daşımadığı gün kimi aydındır.

O cümlədən oktyabrın 9-da Tacikistanın paytaxtı Düşənbədə keçirilən MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində dövlətimizin başçısı İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında baş tutan görüş iki ölkə arasında münasibətlərin tam normal məcraya yönəldiyini göstərdi.

### Mühüm siyasi-diplomatik hadisə

Düşənbədə keçirilən MDB Dövlət Başçıları Şurasının iclası regional əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Adıçəkilən iclas çərçivəsində ölkəmizin rəhbəri İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında baş tutan görüş mühüm siyasi-diplomatik uğur kimi dəyərləndirilməlidir. Çünki iki qonşu ölkənin liderləri arasında keçirilən görüş, sözün həqiqi mənasında Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələyə keçid oldu.

25 dekabr 2024-cü ildə baş vermiş faciəvi hadisə görüşün əsas mövzusunu təşkil etdi. Həmin tarixdə Azərbaycan Hava Yollarına (AZAL) məxsus təyyarənin Rusiya Hava Hücumundan Müdafiə sistemləri tərəfindən vurulması nəticəsində təyyarədə olan 67 nəfərdən 38-i həlak olmuş, yalnız pilotlarımızın qəhrəmanlığı sayəsində 29 nəfər sağ qalmış, onlar da hamısı yaralanmışlar. Baş verən faciə Azərbaycan-Rusiya münasibətlərində ciddi gərginlik yaratmışdı. Ən ali səviyyədə Azərbaycan tərəfi Rusiyadan törətdiyi əmələ görə üzr istəməyi, kompensasiya ödəməyi və bu faciənin törədilməsində günahı olanların cəzalandırılmasını qətiyyətlə tələb etmişdi. Düzdür, qəza baş verdikdən bir az sonra Rusiya Prezidenti dövlətimizin rəhbərinə zəng vuraraq bununla bağlı üzrxahlığını dilə gətirmişdi, amma digər tələb olunan məsələlər açıq qalmışdı ki, bu da təbii olaraq iki dövlət arasında münasibətlərin soyumasına gətirib çıxarmışdı.

Düşənbədə Vladimir Putinin "Görüşümüzə daha həssas mövzu - bizim hava məkanında baş verən aviasiya faciəsi ilə başlamaq istərdim. Artıq həmin vaxt bizim aramızda birinci telefon danışığı əsnasında mən faciənin məhz Rusiya səmasında baş verdiyinə görə üzr istədim, həm də həlak olanların ailələrinə ən səmimi başsağlığı verdim. İstərdim ki, bütün bunları təkrar edim, yenidən söyləyim və qeyd edim, biz sözsüz ki, razılaşdığımız kimi, istintaqa hər cür kömək göstəririk" deyə söyləməsi Rusiyanın bu dəfə məsələdə konstruktiv mövqe tutduğunu ortaya qoydu.

Rusiyanın HHM sistemlərinin bu faciəyə səbəb olduğunu etiraf edən Kreml rəhbəri bildirdi ki, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək.

Prezident İlham Əliyev öz növbəsində bu vəziyyəti nəzarətdə saxladığına görə Vladimir Putinə təşəkkür etdi: "Sizinlə dəfələrlə fikir mübadiləsi aparmışıq, həmçinin komandalarımızın üzvləri daim təmasdadırlar. Siz şəxsən istintaqın gedişinə nəzarət edirsiniz və bizim heç bir şübhəmiz olmayıb ki, o, bütün məsələləri obyektiv araşdıracaq. Ona görə də bizim görüşümüzdə məhz bu məsələyə aydınlıq gətirməyi zəruri hesab etdiyiniz üçün Sizə bir daha minnətdarlığımı ifadə etmək istərdim".

Azərbaycan və Rusiya liderlərinin ölkələrimizin ikitərəfli əlaqələrinin dinamik inkişafına və təyyarə qəzası ilə bağlı yaranmış soyuqluğun aradan qaldırılmasına yönəlik Düşənbə görüşü kifayət qədər konstruktiv keçdi.

### Bütün istiqamətlər üzrə əlaqələr inkişaf edir

Təbii ki, Azərbaycan və Rusiya arasında proseslərin müsbət yöndə inkişafı həm də iki dövlət arasında gərginlik olmasında maraqlı olan Qərbdəki bəzi qərəzli dairələrə və Rusiya Federasiyası içərisində olan bəzi antiazərbaycançı qruplaşmalara ağır zərbə oldu. Məlumdur ki, ötən ilin dekabrında Rusiya hava məkanında baş verən təyyarə qəzasını bəhanə edərək araya nifaq toxumları səpənlər heç də az deyildi. Ötən müddətdə hadisələri daha da gərginləşdirməyə çalışan qüvvələr xalqlarımız arasında milli zəmində düşmənçilik yaratmaq niyyətində idilər və bunun üçün əllərindəki ruporlar vasitəsilə hər cür çirkinlikləri edirdilər. Onlar obyektiv səbəblərdən Rusiya-Azərbaycan arasında yaranmış gərginliyin müharibə həddinə çatmasında belə, maraqlı idilər və necə deyərlər, alovu körükləməklə məşğul idilər.

Lakin Azərbaycan və Rusiya prezidentlərinin 9 oktyabr görüşü və aparılmış müzakirələr ikitərəfli münasibətlərin tam normal məcraya yönəldiyini ortaya qoydu. Bununla həmçinin Qərbdəki bəzi qərəzli qüvvələrin, eyni zamanda içərilərində Marqarita Simonyan, Vladimir Solovyov və Konstantin Zatulin kimilərinin olduğu muzdlu qruplaşmaların da arzuları gözlərində qaldı.

Yürütdüyü balanslaşdırılmış xarici siyasət kursu sayəsində dünyanın əksər ölkələri tərəfindən etibarlı tərəfdaş ölkə kimi tanınan Azərbaycan Rusiya ilə də daim qarşılıqlı etimada əsaslanan münasibətlər qurub. Tarixən mədəni, humanitar, iqtisadi əlaqələrin mövcud olduğu iki ölkə arasında 2022-ci il fevralın 22-də imzalanan bəyannamə ilə Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Buna görə də təyyarə qəzası ilə bağlı iki ölkə arasında yaranmış gərginliyin aradan qalxması, Bakı-Moskva münasibətlərinin normallaşması hər iki tərəf üçün vacib əhəmiyyət daşıyır. Bu, iki qonşu ölkə arasındakı hərtərəfli münasibətlərin qalibiyyəti kimi də xarakterizə oluna bilər.

Düşənbə görüşündə Vladimir Putin söylədi ki, qarşılıqlı maraqlarımız bir çox sahədə üst-üstə düşür və çox yaxındır. Əlbəttə, hər şeydən əvvəl bu, iqtisadi-ticari əlaqələrə aiddir: "...Sizin bu mövzuya diqqətiniz sayəsində bizim humanitar əlaqələrimiz həmişə yüksək səviyyədə olub. Ancaq biz indi bu barədə hələ danışacağıq. Birincisi, bununla bağlı Sizə minnətdarıq, ikincisi, əlbəttə, özümüz də hər şeyi edəcəyik ki, bu dinamika qorunub saxlanılsın".

Prezident İlham Əliyev əlavə etdi ki, bu il təkcə iqtisadi-ticari münasibətlər deyil, həm də bütün istiqamətlər üzrə əlaqələr uğurla inkişaf edir, əmtəə dövriyyəsinin artımında yaxşı dinamika mövcuddur. Həmçinin bütün başqa istiqamətlər üzrə heç bir yerdə hər hansı gecikmə və yaxud geriləmə olmayıb: "Əksinə, Sizinlə təsdiq etdiyimiz yol xəritələri uğurla həyata keçirilir".

Rusiyanın təyyarə qəzasına görə Azərbaycana üzrxahlıq etməsi özlüyündə ədaləti və güclü iradəni ehtiva edir. Bundan sonra da iki ölkə arasında emosionallıqdan uzaq sakit təmasların davam etməsi mühüm əhəmiyyət daşıyır. Bu məqamda Rusiya tərəfindən atılacaq daha bir vacib addım isə bu ölkədə yaşayan və RF vətəndaşı olan etnik azərbaycanlılara qarşı qərəzli təqiblərin dayandırılması olmalıdır. Əminik ki, iki ölkə liderlərinin konstruktiv ruhda keçən və ikitərəfli münasibətlərin tam normal məcraya yönəldiyini göstərən görüşündən sonra bu problem də öz həllini tapacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## "Azərbaycanla Rusiya arasındakı dialoqu ədalətin bərpası kimi qəbul etmək olar"

**Azərbaycanın xarici siyasəti milli maraqlara əsaslanır. Bu baxımdan ölkəmizin digər ölkələrlə, xüsusilə region dövlətləri ilə münasibətləri vurğulanmalıdır. Azərbaycan region dövlətləri ilə yaxın və mehriban qonşuluq əlaqələrinə böyük önəm və hər zaman münasibətlərdə ədalət və beynəlxalq hüquq prinsiplərinə üstünlük verir, o cümlədən qonşu Rusiya ilə münasibətləri də analoji komponentlər əsasında qurur.**



Milli Məclisin deputatı Sevinc Fətəliyeva "Azərbaycan" qəzetinə açıqlamasında xatırladıb ki, ötən ilin dekabrında baş vermiş təyyarə qəzasından sonra Azərbaycan bu məsələdə özünün haqlı mövqeyini ifadə etmişdir: "Ölkəmizin bu məsələdə mövqeyi beynəlxalq hüquqa əsaslanırdı - mülki təyyarənin vurulmasına görə günahkarlar cəzalandırılmalı və zərərçəkənlərə təzminat ödənilməlidir. Düşənbədə MDB dövlət başçılarının sammiti çərçivəsində Azərbaycan və Rusiya liderlərinin görüşü məsələyə aydınlıq gətirdi. Görüşdə Rusiya Prezidentinin açıqlaması Azərbaycanın mövqeyi ilə uzlaşırdı".

Deputatın sözlərinə görə, Azərbaycan hər zaman yaxın qonşuluq münasibətlərinin inkişafında maraqlı tərəf kimi çıxış edir: "Baş verənlərin fonunda bizim Rusiyaya qarşı hər hansı bir iddiamız olmayıb, sadəcə, rəsmi Bakı qəzaya hüquqi qiymət verilməsini, Moskvanın üzərinə düşən məsuliyyəti yerinə yetirməsini arzulayıb. Dövlətimizin başçısı çıxışlarında dəfələrlə bu mövqeyi bəyan edib. Proseslər göstərir ki, Azərbaycan hər zaman dialoq tərəfdarıdır və Rusiya ilə münasibətlər kontekstində də dialoq amili xüsusi vurğulanmalıdır. Nəzərə almaq lazımdır ki, Azərbaycan təkcə Rusiyaya yanaşmada deyil, digər ölkələrlə də münasibətlərdə dialoqa üstünlük verir. Buna nümunə olaraq, Azərbaycanla Fransa arasında dialoqu göstərmək olar. Məlumdur ki, uzun müddət idi Fransa ölkəmizə qarşı ədalətsiz, qərəzli mövqe sərgiləyirdi. Lakin ölkəmiz daim özünün haqlı mövqeyini qorumuş, rəsmi Parisə öz haqlı mövqeyini bəyan etmişdir. Avropa Siyasi Birliyinin son sammitində Azərbaycan və Fransa liderlərinin görüşü ölkəmizin dialoqa verdiyi önəmi bir daha nümayiş etdirdi. Yəni bu amil dövlətimizin haqlı mövqeyinin qəbul olunmasını şərtləndirir", - deyə S.Fətəliyeva əlavə edib.

Deputat onu da bildirib ki, bu baxımdan Azərbaycanla Rusiya arasındakı son dialoqu nəticə etibarilə ədalətin bərpası kimi qəbul etmək olar: "Bu gün Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlıq mövcuddur. Azərbaycan Rusiyanın xarici iqtisadi tərəfdaşlarından biridir. Bu gün iki ölkə arasında iqtisadi əlaqələr uğurla inkişaf edir. Ümid edirik ki, yaranmış hazırkı müsbət atmosfer münasibətlərimizin inkişafına, mövcud olan müəyyən problemlərin ədalətli həllinə müsbət təsir göstərəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Ekspert Kiril KRİVOŞEYEV: "Düşənbədə keçirilən görüş Rusiya ilə Azərbaycan arasında etimadın bərpasına yol açıb"

**"Rusiya-Azərbaycan münasibətlərindəki böhran çoxsaylı şayiələrə və şərhlərə səbəb olub. Gizli səbəblərdən - Zəngəzur dəhlizindən, hətta məxfi danışıqlardan söhbət gedirdi. Amma raketlərin Rusiyaya məxsus olduğunun etiraf edilməsi haqqında düzgün fikir ifadə edən kimi, hər şey səngidi".**



AZƏRTAC xəbər verir ki, bu sözləri MDB üzrə ekspert Kiril Krivoşeyev Rusiya və Azərbaycan prezidentlərinin MDB sammiti çərçivəsində Düşənbədə keçirilən görüşünü şərh edərkən deyib.

O, Rusiyanın təyyarə insidentinə görə məsuliyyəti öz üzərinə götürməsinin mühüm addım olduğunu, amma bəyanatın "yumşaq" səsləndiyini bildirib: "Putin pilotsuz uçuş aparatlarını, daha sonra texniki nasazlığı, bunun ardından isə pilotların Mahaçqalaya enməmək qərarını vurğuladı. Amma əslində, Aktauda eniş qərarı düzgün idi. Bu, sərnişinlərin həyatını xilas etdi, çünki təyyarənin hidravlik sistemləri zədələnmişdi, Mahaçqala ətrafındakı dağ relyefi isə onun enişini qeyri-mümkün edirdi", - deyə ekspert izah edib.

K.Krivoşeyev qeyd edib ki, faciənin səbəbləri çoxdan məlum idi, ancaq siyasi mülahizələr Moskvanın səhvini etiraf etməsinə mane olub. "Biz bu barədə hələ yaz aylarında bilirdik. Nə isə bizə mane olurdu - ola bilsin ki, etiraf anını düzgün siyasi kontekstdə qurmaq zərurəti olub. İndi görüş baş tutandan və Putin ilə Əliyev hər şeyi birbaşa müzakirə edəndən sonra deyəsən, yeni səhifə açılıb", - deyə o əlavə edib.

Həlak olanların və xəsarət alanların ailələrinə təzminat tələblərinə münasibət bildirən Krivoşeyev qeyd edib ki, sığorta ödənişləri dövlətin məsuliyyəti deyil, şirkətlərin şəxsi işidir: "Rusiya Xarici İşlər Nazirliyi bildirib ki, kompensasiya sığorta ödənişi ola bilər. Amma bu, özəl "Alfa Sığorta" şirkətidir. Bu, dövlətin işi deyil. Ümid edirəm ki, kompensasiya təmin olunacaq, çünki bu, ədalət məsələsidir".

Ekspertin fikrincə, hər iki tərəfdən yığılan emosiyalar səhvləri dərhal etiraf etməyə mane olub: "Əlbəttə, üzr istəmək lazımdır, amma yığılan emosiya yükü bunu daha tez etməyə mane oldu".

K.Krivoşeyev Düşənbədəki görüşdən sonra iki ölkə arasında münasibətlərin ötən ilin sonundakı böhrandan əvvəlki səviyyəyə qayıdacağına ümid etdiyini bildirib. "Strateji layihələr üzrə əməkdaşlıq dayanmayıb. Rusiya İranda dəmir yolunun tikintisini davam etdirir, Azərbaycanla enerji və logistika sahəsində əməkdaşlıq edir. İnanmaq istərdim ki, Düşənbədəki görüşdən sonra hər şeyi yoluna qoymaq şansı var", - deyə ekspert sözlərini yekunlaşdırıb.

## *Yaxın Şərqdə sülhün yeni mərhələsi:* Azərbaycanın diplomatik rolu önə çıxır

**"Qəzza zolağında atəşkəs sazişinin imzalanması münasibətilə çağırılan Sülh Sammiti dünya miqyasında xüsusi diqqət cəlb edir. Misirin Şarm əl-Şeyx şəhərinin evsahibliyi etdiyi bu tədbirdə Azərbaycanın da ən yüksək səviyyədə iştirakı ölkəmizin Yaxın Şərqdə sülhə töhfə verən dövlətlər sırasında yer almasının daha bir konkret təzahürüdür".**

AZƏRTAC xəbər verir ki, bu barədə Media Təhlil Mərkəzinin analitik qrupunun şərhində bildirilib.

Qeyd olunub ki, bu kontekstdə Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatları və Misir prezidentləri Donald Trampla Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misirə işgüzar səfər edib. Misir və ABŞ prezidentlərinin həmsədrlik etdikləri sammitə Azərbaycan da daxil olmaqla 20-dən çox ölkənin liderinin qatılması tədbirin əhəmiyyətini bir daha nümayiş etdirir.

Vurğulanıb ki, oktyabrın 9-da İsrail və Fələstinin HƏMAS hərəkatı Yaxın Şərqdə vəziyyətin nizamlanması üçün sülh planı çərçivəsində ilk razılaşmaları imzalayıb. Buna əsasən, HƏMAS bütün girovları azad etməli, İsrail isə qoşunlarını razılaşdırılmış xəttə çəkməlidir. Artıq oktyabrın 10-da İsrail ordusunun qüvvələri anklavdakı müəyyən olunmuş xətlərə ilkin çıxarılmanı başa çatdırıblar. "Haaretz" qəzetinin məlumatına görə, Qəzza zolağından xeyli sayda hərbçi çıxarılıb. Lakin qəzet yazır ki, İsrail komandanlığı geri çəkilmə xətti boyunca yerləşən bölmələrin öz təşəbbüsləri ilə hərəkət edən qüvvələrin hədəfinə çevrilə biləcəyindən narahatdır.

Bütün bunlara baxmayaraq, ABŞ Prezidenti Donald Tramp əldə olunan razılaşmaların təkcə Qəzza zolağında deyil, bütövlükdə Yaxın Şərqdə sülhə gətirib çıxaracağına əminliyini ifadə edib.

Eyni zamanda qeyd edilməlidir ki, İsrail və HƏMAS sülhə razılıq versələr də, Yaxın Şərq Sülh Sammitində iştirakdan imtina ediblər. Fakt ondan ibarətdir ki, sülh üçün böyük dövlətlər tərəfindən ciddi addımlar atılsa da, bu məqsədə nail olmaq asan deyil.

Düzdür, oktyabrın 10-da tərəflər arasında rəsmən atəşkəs elan edilsə də, hələ də həll olunmamış bir çox məsələ qalmaqdadır. Məsələn, İsrailin müdafiə naziri İsrael Katz bildirib ki, girovların qaytarılması mərhələsindən sonra əsas prioritet HƏMAS-a bağlı bütün terror tunellərinin ABŞ rəhbərliyi və nəzarəti altında yaradılacaq beynəlxalq mexanizm vasitəsilə məhv edilməsi olacaq. Onun sözlərinə görə, İsrail ordusu HƏMAS-ın uzun illər ərzində qurduğu yeraltı infrastrukturu tamamilə sıradan çıxarmağa hazırlaşır.




HƏMAS isə hələlik silahı yerə qoymaq niyyətində deyil. Təşkilat Qəzza zolağında ikiillik müharibə nəticəsində zəifləmiş mövqelərini bərpa etməkdə maraqlıdır. "Financial Times"ın yazdığına görə, rəsmi atəşkəs oktyabrın 10-da qüvvəyə mindikdən sonra HƏMAS üzvləri mühüm nöqtələrdə hərbi nəzarəti bərpa etmək üçün bütün zolaqda sürətlə yerdəyişmələrə başlayıblar. Halbuki Donald Trampın 20 bəndlik sülh planına əsasən, HƏMAS tərk-silah olmalı və Qəzza zolağına nəzarəti təhvil verməlidir.

İsrailin yüksəkrütbəli kəşfiyyat mənbəyi "Al-Monitor" nəşrinə bildirib ki, İsrail tərəfi HƏMAS-ın tərk-silah məsələsinə əməl etməyəcəyini proqnozlaşdırır. Bundan əlavə, HƏMAS və onunla müttəfiq olan "İslami Cihad" və Fələstinin Xalq Qurtuluş Cəbhəsi kimi qruplaşmalar münaqişə həll edildikdən sonra Qəzza zolağına xaricdən nəzarət ideyasını rədd etdiklərini bəyan ediblər.

Bu fonda ekspertlər hesab edirlər ki, demilitarizasiya prosesinə və sazişin icrasına nəzarət etmək üçün ABŞ-nin himayəsi altında xüsusi sülhməramlı qüvvə yaradılmalıdır. Vaşinqton bu qüvvələrin əsas hissəsinin Qətər, Misir, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri və İndoneziya kimi müsəlman ölkələrindən formalaşacağına ümid edir. ABŞ artıq bu prosesi koordinasiya etmək üçün İsrailə 200 nəfərlik hərbi komanda göndərib.

Beynəlxalq müşahidəçilərin fikrincə, Trampın 20 bəndlik sülh planının ikinci mərhələsi birincidən xeyli çətin olacaq. Çünki bu mərhələ HƏMAS-ın silahsızlaşdırılmasını və onun hərbi-siyasi qüvvə kimi tamamilə aradan qaldırılmasını nəzərdə tutur. İsrailin BMT-dəki daimi nümayəndəsi Denni Danon "Fox News"a açıqlamasında qeyd edib: "Birinci mərhələ ən asandır. İkinci mərhələ daha çətindir. Çünki ikinci mərhələdə HƏMAS silahlarını yerə qoymalıdır. Qəzza hərbsizləşdirilməlidir. Bu, çox vaxt aparacaq".

Bununla belə qeyd edilməlidir ki, Qəzzada sülhün təmin olunması üçün beynəlxalq ictimaiyyət siyasi iradə sərgiləyir. Yaxın Şərq Sülh Sammiti də məhz bu iradənin təzahürüdür. Dünya ictimaiyyətinin bu səylərinə nə İsrailin, nə də HƏMAS-ın qarşı çıxmağa gücü yetər.

Sülh prosesinə töhfə verən ölkələr arasında Azərbaycan da xüsusi yer tutur. Çünki Yaxın Şərq kimi mürəkkəb geosiyasi məkanda Azərbaycan kimi tarazlaşdırılmış, müstəqil və çoxvektorlu xarici siyasət yürüdən dövlətin rolu mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan həm diplomatik fəallığı, həm də multikulturalizm və dinlərarası dialoq təcrübəsi ilə Yaxın Şərqdə sülh prosesinə real töhfə verən ölkələrdəndir. Ölkəmizin xarici siyasət strategiyası tarazlıq prinsiplərinə əsaslanır - Azərbaycan həm Qərb, həm də Şərq dövlətləri ilə qarşılıqlı faydalı münasibətlər saxlayır, müxtəlif dini və mədəni mərkəzlər arasında körpü rolunu oynayır.

Bu amil Bakının Yaxın Şərqdəki sülh təşəbbüslərində etibarlı tərəfdaş kimi qəbul edilməsinə imkan yaradıb. Azərbaycanın İsrail və Fələstinlə münasibətləri bunun bariz nümunəsidir: Bakı həm İsraillə strateji əməkdaşlıq edir, həm də Fələstin xalqının dövlət qurmaq hüququnu dəstəkləyir.

Azərbaycanın sülh prosesində ən böyük üstünlüyü çoxmillətli və multikultural cəmiyyət modelidir. Bakı illərdir dinlərarası dialoq və tolerantlıq mövzusunda beynəlxalq təşəbbüslər irəli sürür. Bakı Humanitar Forumu, Dinlərarası Dialoq Konfransı və Mədəniyyətlərarası Dialoq forumları kimi tədbirlər Yaxın Şərq ölkələrinin nümayəndələrini bir araya gətirir. Bu platformalar vasitəsilə Azərbaycan müsəlman ölkələri, o cümlədən Yaxın Şərqdəki dövlətlər arasında qarşılıqlı anlaşmanı və mədəni yaxınlaşmanı təşviq edir.

Azərbaycanın Yaxın Şərqdəki sülh missiyası Türkiyə ilə strateji ittifaq fonunda daha da güclənib. Ankara regionda əsas diplomatik və hərbi güclərdən biri kimi sülh təşəbbüslərində fəal rol oynayır. Azərbaycan-Türkiyə tandemi Yaxın Şərqdə ədalətli və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin formalaşmasında ortaq mövqe nümayiş etdirir.

Azərbaycanın yanaşması aydındır: Yaxın Şərqdə sülhün bərqərar olması üçün güc amili kənara qoyulmalı, diplomatiya və qarşılıqlı anlaşma ön plana çəkilməlidir. Məhz bu səbəbdən ölkəmiz ABŞ Prezidentinin sülh planını tam dəstəkləyir.

# Yaxın Şərqdə sülhün təminatı və Azərbaycan təcrübəsi

## Prezident İlham Əliyevin Misir Sammitinə dəvət edilməsi bu amildən doğur

**Dünən Misirdə yalnız Yaxın Şərqin deyil, dünyanın gələcək taleyini həll edə biləcək sammit keçirilib. Şarm-əl-Şeyxdə Qəzza bölgəsinin gələcəyi ilə əlaqədar təşkil olunan sammitdə qlobal siyasətdə söz sahibi olan dövlətlərin başçıları iştirak ediblər.**



Həyata keçirdiyi müstəqil siyasətlə qlobal nüfuzu artan, adı dünyanın tanınmış siyasətçiləri arasında çəkilən, etibarlı tərəfdaş statusuna sahiblənən Prezident İlham Əliyev də sammitə dəvət olunanlar sırasında yer alıb. İlham Əliyev ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak edib.

Qeyd edək ki, bu yüksəksəviyyəli siyasi tədbirə Fransa Prezidenti Emmanuel Makron, Böyük Britaniyanın Baş naziri Kir Starmer, İtaliya Nazirlər Şurasının Sədri Corcia Meloni, İspaniyanın Baş naziri Pedro Sançes, həmçinin Yaponiya, Hindistan, Kanada, Yunanıstan, Bəhreyn, Əl-Küveytin, Qətər və İordaniyanın xarici işlər nazirləri, eləcə də BMT və Avropa İttifaqının təmsilçiləri qatılıblar.

Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp tərəfindən sammitə şəxsən dəvət olunması isə artıq Azərbaycanın qlobal siyasətdə özünəməxsus yer tutduğunu göstərir. Azərbaycan Prezidentinin Yaxın Şərq Sülh Sammitinə dəvət alması heç də təsadüfi xarakter daşımır. Ölkəmiz Suriyaya yardım məqsədilə təbii qaz ixrac etməsi faktı Prezident İlham Əliyevin humanist baxışlarını göstərməklə yanaşı, sülhə doğru addım atan siyasi liderlik qabiliyyətində olduğunu da nümayiş etdirir. Bütün bunlar Azərbaycan Prezidentinin dünya liderləri sırasında sülhsevər dövlət başçısı kimi nüfuzunu möhkəmləndirir.

Azərbaycan özünün praqmatik siyasi xətti və iqtisadi inkişafı ilə dünya birliyində layiqli yerini tutub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan artıq regional oyunçu statusundan çıxaraq, qlobal səviyyədə problemlərin həllində iştirak edən ölkəyə çevrilməkdədir. Ümumiyyətlə, xarici siyasətin düzgün müəyyənləşdirilməsi və icrası dünyanın mürəkkəb və həssas bölgəsində - coğrafi baxımdan Qərb və Şərqin kəsişməsində, sivilizasiyaların qovuşma məkanında, strateji yanaşmalarda isə geosiyasi və geoiqtisadi maraqların üst-üstə düşdüyü ərazidə yerləşən Azərbaycan üçün həm ötən dövrlərdə, həm də indi müstəsna əhəmiyyətə malikdir. Məhz bu siyasət nəticəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu və nüfuzu yetərincə yüksəkdir. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyünün ardınca ölkəmizin 2017-2019-cu illər üçün 176 səs lehinə olmaqla BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçilməsi, 2019-cu ildə isə dünyanın 120 ölkəsini birləşdirən Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürməsi xarici siyasətimizin nailiyyətləri kimi tarixə yazılıb.

Həyata keçirdiyi müstəqil siyasətlə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyev hadisələri düzgün analizetmə, doğru qərarvermə bacarığı, uğurlu hücum diplomatiyası ilə ölkəmizi həm də dünyada etibarlı tərəfdaş kimi tanıdıb. Müasir dünyamızın acı reallıqları fonunda İlham Əliyev coğrafi cəhətdən elə də böyük olmayan dövləti - Azərbaycanı beynəlxalq siyasətin subyektindən onun mühüm aktoruna çevirib. Azərbaycan qısa zaman ərzində Avropanın enerji təhlükəsizliyinin təminatçısı statusuna sahiblənib.

Təkcə son illərin xarici siyasətinin uğurlarına nəzər yetirsək aydın şəkildə görərik ki, ölkəmizlə müxtəlif sahələr üzrə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artmaqdadır. Həmçinin Azərbaycan da bir çox böyük dövlətlərlə strateji tərəfdaşlığını gücləndirməkdə maraqlıdır.

Əlbəttə ki, Azərbaycanın strateji tərəfdaşlıq etdiyi ölkələrin sayının artmasını, müttəfiqlərinin coğrafiyasının genişlənməsini şərtləndirən əsas amil isə İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərimizdir.

Bu gün İlham Əliyev şəxsiyyətinə, liderliyinə, geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, dövlətimizin başçısı təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, o, ümumiyyətlə, dünya miqyasında tanınan qlobal liderliyi etiraf olunan şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud prblemlərinin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin. Yəni İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlətimizin başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Buna misal olaraq İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü qlobal təşəbbüslər, mühüm təklifləri göstərmək olar.

Prezident İlham Əliyev beynəlxalq siyasət arenasında artan nüfuzu və strateji yanaşmaları ilə diqqət çəkir. Bu da onu göstərir ki, İlham Əliyev yalnız Azərbaycanın milli maraqlarını qorumaqla kifayətlənmir, eyni zamanda regiondakı və qlobal səviyyədəki sülh və sabitlik proseslərinə təsir edir. Prezident Ilham Əliyevin Yaxın Şərq Sülh Sammitində iştirakı da bu nüfuzun daha da gücləndiyinin təsdiqidir.

İlham Əliyevin məsələlərə diplomatik yanaşması Azərbaycanı yalnız regionda deyil, həm də beynəlxalq aləmdə etibarlı və nüfuzlu bir tərəfdaş kimi tanıdıb. Yaxın Şərq Sülh Sammitində iştirak edən Prezident Əliyev Azərbaycanı yalnız enerji ixracatçısı kimi deyil, həm də beynəlxalq sülh və təhlükəsizlik məsələlərində fəal iştirak edən bir aktor olaraq təqdim edib. Bu onun Azərbaycanın beynəlxalq məsələlərdə yalnız regional deyil, qlobal məsələlərdə də mühüm söz sahibi olduğunu göstərir.

Prezident İlham Əliyevin Yaxın Şərq Sülh Sammitindəki iştirakı Azərbaycanın qlobal siyasətdəki artan rolunu bir daha nümayiş etdirir. Onun diplomatik ustalığı, regiondakı və dünya miqyasında sülhün bərpa edilməsinə yönəlmiş səyləri, həmçinin Azərbaycanın multikultural dəyərlərə və beynəlxalq əməkdaşlığa verdiyi əhəmiyyət onu qlobal siyasət arenasında etibarlı və güclü bir lider olaraq tanıdır. Bu, yalnız Azərbaycan üçün deyil, bütün dünyada sabitlik və qarşılıqlı anlaşmanın təşviqi baxımından mühüm əhəmiyyət daşıyır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Nyu Yorkda BMT-nin Baş katibi ilə görüşüb

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə ABŞ-yə səfəri çərçivəsində BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşüb.**



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Şeyxülislam A.Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın salamlarını BMT Baş katibinə çatdırıb.

Səmimi dialoq şəraitində keçən görüşdə dinlərarası dialoqa dair konstruktiv müzakirələr aparılıb.

# QMİ sədri ABŞ rəsmiləri ilə Cənubi Qafqazda sülhü və dinlərarası dialoqu müzakirə edib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyətinin ABŞ-yə səfəri davam edir.**

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin səfər çərçivəsində Vaşinqtonda, Ağ Evdə ABŞ vitse-prezidenti ofisinin Milli təhlükəsizlik məsələləri üzrə xüsusi müşaviri Endryu Lumis, Vitse-prezident Aparatının strateji məsələlər üzrə xüsusi müşaviri Maykl İmbrenda və Dövlət Departamentinin Siyasət Planlaşdırma Şöbəsinin üzvü Conatan Askonas ilə görüşü olub.

Görüşdə tərəfləri maraqlandıran məsələlər, o cümlədən avqustun 8-də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın tərəfindən paraflanan sülh sazişindən sonra Cənubi Qafqaz regionu üçün yaranmış yeni fürsətlər, ölkəmizin nümunəvi məzhəblərarası və dinlərarası təcrübəsinin beynəlxalq miqyasdakı önəmi, Azərbaycan-ABŞ dinlərarası əməkdaşlıq münasibətlərinin inkişafı və davamlı sülhün qurulmasında multikultural dəyərlərin rolu kimi mövzular müzakirə olunub.

Şeyxülislam A.Paşazadə Prezident Donald Tramp tərəfindən "Azadlığa Dəstək Aktı"nın Azərbaycanla bağlı 907-ci düzəlişinin icrasının dayandırılmasını yüksək qiymətləndirərək, buna görə ABŞ tərəfinə öz minnətdarlığını bildirib. O, Ağ Ev nümayəndələrini Dövlət Departamentində ABŞ Beynəlxalq Din Azadlığı Komissiyasının üzvləri ilə keçirdiyi görüş haqqında məlumatlandırıb, qarşı tərəfi Azərbaycanı din azadlığının vəziyyətinə görə Xüsusi Müşahidə Siyahısından çıxarmağa çağırıb. Qeyd edib ki, belə bir siyahıda Azərbaycanın adının yer alması ölkədə hökm sürən multikultural mühitə və dinlərarası harmoniyaya uyğun deyil.

ABŞ nümayəndələrinin diqqətinə çatdırılıb ki, son vaxtlar erməni kilsəsi və diasporu sülh prosesinə mane olur, revanşizmi təşviq edir. Halbuki onlar bu fürsətdən istifadə edib sülhə dəstək vermək üçün dini və ictimai qurumlar siyasətçiləri dəstəkləməlidirlər. Azərbaycan isə bəzi erməni dairələrindən, xüsusilə erməni kilsəsindən fərqli olaraq, məhz bu cür yanaşma nümayiş etdirir.

Tərəflər xüsusilə mürəkkəb geosiyasi bölgədə yerləşən Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün təmin olunması üçün xalqlar və dinlər arasında qarşılıqlı etimad və əməkdaşlığın vacibliyini vurğulayıblar. ABŞ tərəfi bu kontekstdə Şeyxülislam Allahşükür Paşazadənin səfərinin xüsusi əhəmiyyət daşıdığını qeyd edib. Şeyxülislam bildirib ki, rəhbərlik etdiyi Qafqaz Müsəlmanları İdarəsi sülhün və birgəyaşayışın təşviqi istiqamətində səylərini davam etdirəcək, həmçinin ABŞ-nin dini qurumları ilə birgə layihələrin həyata keçirilməsinə hazırdır.

Görüşdə iştirak edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və Milli Məclisin deputatı Cavanşir Paşazadə ölkəmizdə mövcud olan multikultural mühitdən və dövlət-din münasibətlərinin inkişafında parlamentin rolundan danışıblar.

# Azərbaycanda yaşayış məntəqələrinin raket atəşinə tutulması ilə bağlı Ermənistan silahlı qüvvələri rəhbərliyinin verdiyi əmrlər açıqlanıb

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 13-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclası sənədlərin elan olunması ilə davam etdirilib.

Sənədlərdən birində qeyd edilib ki, qondarma qurumun mövcud olduğu müddət ərzində mediada həftəlik "Qoyamart" (Azərbaycan dilinə tərcümədə "yaşamaq uğrunda döyüş") hərbi proqramı yayımlanıb.

Həmin proqramın verilişləri izlənilərək təhlil edilib, Azərbaycan Respublikasının suveren ərazilərinin işğalının təşviq edilməsi və Azərbaycanın vaxtilə işğal altında olan ərazilərindəki Ermənistan silahlı qüvvələrinin döyüş hazırlığının yüksəldilməsi üzrə orada xidmət edən yüksəkrütbəli zabitlərin fəaliyyətinin qeydiyyatı aparılıb. Belə zabitlərdən biri general-mayor ali hərbi rütbəli, hazırda təqsirləndirilən David Manukyandır. "Qoyamart" hərbi proqramının 2020-ci il mayın 16-da yayımlanmış buraxılışına əsasən, Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində Ermənistan silahlı qüvvələrinin ən böyük silahlı birləşməsinin diviziyalarında "müdafiə döyüşündə atıcı silahlardan atəşin aparılma forma və metodları" və "müdafiə döyüşündə qumbaraatan taqımının tətbiqi" mövzularında "nümunəvi məşğələlər" keçirilib. Təlimlərə rəhbərliyi silahlı birləşmənin komandanı general-leytenant Calal Arutyunyan və onun 1-ci müavini general-mayor David Manukyan edib, "lazımi göstərişlər" veriblər.

Elan olunan sənədlərdən biri "Krunq" təşkilatının yaradılması və fəaliyyəti ilə bağlı olub.

Növbəti sənədlər Ermənistan Respublikası Müdafiə Nazirliyinin yaradılması, formalaşması barədə bir sıra məlumatlarla bağlı olub. Bildirilib ki, 1992-ci il yanvarın 28-də Ermənistan hökumətinin qərarı ilə Nazirlər Şurası yanında Əlahiddə Müdafiə Komitəsi ləğv olunub və onun bütün əmlakı yeni yaradılmış Müdafiə Nazirliyinin tərkibinə verilib. Müdafiə naziri vəzifəsinə Vazgen Sarkisyan təyin edilib.

Daha sonra Ermənistan silahlı qüvvələrinə məxsus bir sıra məxfi sənədlər elan olunub. Həmin sənədlərin hər birinin fotoşəkilləri də məhkəmədə nümayiş etdirilib.

Sənədlərlə sübut olunur ki, Ermənistan silahlı qüvvələrinin müxtəlif strukturlarına, habelə qondarma qurumun "ordusu"na (Ermənistan silahlı qüvvələrinin ən böyük silahlı birləşməsinə - red.) Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində icra edilməsi məqsədilə müxtəlif hərbi tapşırıqlar verilib.

Məsələn, Ermənistan Respublikası silahlı qüvvələrinin baş qərargah rəisi general-polkovnik Yuri Xaçaturovun 04.05.2016-cı il tarixli, 0119 nömrəli məxfi əmrindən - döyüş tapşırığından görünür ki, qondarma qurumun "ordusunun komandiri"nə "6-cı müdafiə rayonu"nun tank əleyhinə çuxur və çuxur yollarının torpaq qatlarını təchiz etmək və aralıq səngər və müdafiə xətti kimi istifadə etmək, "9-cu müdafiə rayonu"nun tank əleyhinə çuxur və çuxur yollarını bir-biri ilə mütləq şəkildə birləşdirmək və bütünləşdirmək, döyüş düzülüşündə olan vasitələri maskalamaq tapşırılıb.

Məhkəmədə Ermənistan Respublikası silahlı qüvvələrinin baş qərargah rəisi, general-leytenant Movses Akopyanın və silahlı qüvvələrin Baş Qərargahının Kəşfiyyat idarəsinin rəisi, polkovnik V.Sarqsyanın İrəvan şəhərində tərtib olunmuş 24.12.2016-cı il tarixli, 016 nömrəli birgə məxfi əmri - döyüş tapşırığı da açıqlanıb və sənədin fotosu nümayiş etdirilib.

Məxfi sənəddən görünür ki, qondarma qurumun "ordusu"nun şimal-şərq istiqamətində ərazinin tədqiq edilməsi və radioelektron kəşfiyyat (REK) bölmələrinin mövqe rayonunun seçilməsi məqsədilə 2017-ci il yanvarın 10-14-də 24-cü Xüsusi Təyinatlı Əlahiddə Radiotexniki Alayının işçi qrupunun İrəvan-Xankəndi-Ağdərə-Suqovuşan-Xankəndi-İrəvan marşrutu üzrə səfərinin təşkil edilməsi, həmin əmrin icrasına nəzarət isə Ermənistan Respublikası silahlı qüvvələrinin Baş Qərargahının Kəşfiyyat idarəsinin rəisinə tapşırılıb.

Məhkəmədə Ermənistan Respublikası silahlı qüvvələrinin baş qərargah rəisi, general-leytenant A.Davtyanın İrəvan şəhərində tərtib edilmiş 24.09.2019-cu il tarixli, 0261 №-li məxfi əmri - döyüş tapşırığı da açıqlanıb və nümayiş etdirilib.



Sənəddən görünür ki, Ermənistan Respublikası silahlı qüvvələrinin silahlanma rəisinə qondarma qurumun "ordusu"nun 1-ci, 2-ci, 3-cü, 4-cü və 7-ci "müdafiə rayonları"na 46 komplekt, 120 millimetrlik M-75 (M-74) minaatanlarının əvəzinə 20 komplekt 82 millimetrlik M-69, 26 komplekt 82 millimetrlik BM-37 minaatanlarının verilməsi tapşırılıb.

Həmin sənədlə qondarma qurumun "ordu komandiri"nə isə qeyd olunan silah-sursatın təhvil alınaraq həmin "müdafiə rayonları"na verilməsinin təşkil edilməsi və işlərin yekunu barədə 5 gün ərzində Ermənistan Respublikası silahlı qüvvələrinin baş qərargah rəisinə məruzə edilməsi tapşırılıb.

Qondarma qurumun "ordusu" (Ermənistan silahlı qüvvələrinin ən böyük silahlı birləşməsi - red.) "komandanın 1-ci müavini - qərargah rəisi" general-mayor Kamo Vardanyanın "Düşmənin yaşayış məntəqələrinin atəşlə məhv edilməsi barədə" 25.09.2020-ci il tarixli, 0671 nömrəli məxfi əmri (döyüş tapşırığı) də açıqlanıb. Əmrdən görünür ki, Xankəndi şəhərində birləşmə və hərbi hissə komandirlərinə 2020-ci il sentyabrın 28-dək qeyd olunan əmrə əlavə edilmiş yaşayış məntəqələrini atəş hədəfinə almaq, atəş üçün yerləşmələri hesablamaq və döyüş tətbiqi sənədlərinə əlavə etmək, döyüş hesablarını dəqiqləşdirmək, artilleriya hərbi hissələrində 40 km mənzilli G-2000 raketləri ilə atəş aparmaq üçün konkret olaraq bir vahid BM-21 sistemləri (YARS) hazırlamaq və onun üçün nəzərdə tutulmuş 80 ədəd raketdən 40 ədədini daimi olaraq atəş açacaq döyüş maşının nəqliyyat-doldurucu avtomobilində saxlamaq, digər 40 ədədini isə həmin döyüş maşını döyüş düzülüşünə açılmazdan əvvəl ona yükləmək, BM-21 YARS-ı dəyişdirici alətlərlə təchiz etmək tapşırılıb.

Əmrə əlavə edilmiş atəş məhvetmə hədəfinə alınmış yaşayış məntəqələrinin siyahısına Azərbaycanın Mingəçevir və Naftalan şəhərləri, Tərtər, Yevlax, Beyləqan, Ağcabədi və digər rayonları, habelə bir sıra qəsəbələri, kəndləri daxildir.

Elan olunan sənədlərə əsasən, həmçinin Vətən müharibəsinə qədər Azərbaycanın işğal altında olmayan, mülki əhalinin məskunlaşdığı yaşayış məntəqələrinin Ermənistan silahlı qüvvələri tərəfindən məhv edilməsinə dair direktiv, məhv ediləcək yaşayış məntəqələrinin dəqiq koordinatları, hansı növ raketlərdən istifadə edilməsi təqdim olunub.

Bildirilib ki, həmin sənəddə hədəf kimi göstərilən koordinatlar Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən yoxlanılıb və həmin koordinatların Azərbaycan Respublikasının yaşayış məntəqələrinə uyğun gəldiyi öz təsdiqini tapıb.

Məhkəmə prosesi oktyabrın 16-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

**Misir Ərəb Respublikasında ölkəmizə rəğbət, dövlətimizin başçısına ehtiram böyükdür. Prezident İlham Əliyevin dost ölkəyə budəfəki işgüzar səfəri deyilənləri bir daha təsdiqləyir. Qarşılıqlı hörmət və etimad, ali səviyyədə səfərlər və görüşlər iqtisadi sahədə əməkdaşlığı genişlənməsinə də meydan açır.**



# Azərbaycan-Misir iqtisadi əlaqələrinin inkişafı üçün geniş potensial var

Qeyd edək ki, Azərbaycan-Misir iqtisadi əlaqələrinin inkişafı üçün böyük potensial mövcuddur. Atılan addımlar, müəyyənləşdirilən vəzifələr bu münasibətlərin qarşısında həm də böyük perspektivlər açır. Görülən işlər iqtisadi əməkdaşlığın inkişafına daha da təkan verir. Bu baxımdan Prezident İlham Əliyevin Misirə keçən ilin iyun ayındakı rəsmi səfərini də xatırlamaq yerinə düşər. Belə ki, bununla əməkdaşlıq yeni mərhələsinə qədəm qoydu. Hər iki dövlət başçısı mətbuata bəyanatlarında da vurğuladılar ki, bu səfər, ümumiyyətlə, ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edir və yeni yollar açacaq.

Azərbaycan Prezidentinin Misirə hələ 2007-ci il mayın 6-8-də reallaşan səfəri bu ölkə ilə əlaqələrin inkişafına təkan vermişdi. O zaman iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsi, misirli iş adamlarının Azərbaycana sərmayə qoyulmasına cəlb edilməsi ilə bağlı fikir mübadiləsi aparılmışdı və müxtəlif sahələri əhatə edən 12 sənəd imzalanmışdı. 2023-cü ilin yanvarında Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin Azərbaycana səfəri də yaddaqalan oldu. Prezident İlham Əliyevlə geniş tərkibdə görüş başa çatdıqdan sonra iki ölkə arasında bir sıra sənədlər imzalandı.

Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında artıq 23 ildir Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiya fəaliyyət göstərir. Bu komissiyasının işi nəticəsində əlaqələrin inkişafı istiqamətində mühüm addımlar atılıb. Belə ki, indiyədək ölkələrimiz arasında 60-dan çox sənəd imzalanıb. Bu sənədlərə "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Misir Ərəb Respublikasının Su Ehtiyatları və Suvarma Nazirliyi arasında su ehtiyatlarının idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Ticarət və Sənaye Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" da aiddir.

Azərbaycanda ticarət, sənaye və xidmət sahələrində Misir investisiyalı şirkətlər də fəaliyyət göstərir. İki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün böyük potensial var. Enerji sahəsində əməkdaşlığımız çoxşaxəlidir və bu əlaqələrin genişləndirilməsi üçün tədbirlər həyata keçirilir, SOCAR Misirin Dövlət Neft Şirkəti ilə əməkdaşlıq edir. Əlaqələrimiz turizm sahəsində də inkişaf edir və son illər Misirdən Azərbaycana gələn turistlərin sayı nəzərəçarpacaq dərəcədə artıb. Eyni zamanda Azərbaycanla Misir arasında bir sıra mühüm sosial layihələr həyata keçirilir.

Keçən il iyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin iştirakı ilə imzalanan Azərbaycan-Misir sənədlərinin sırasında iqtisadi əlaqələrin inkişafına xidmət edən sənədlər də xüsusi önəm kəsb edir. "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Misir Ərəb Respublikasının Elektrik və Bərpaolunan Enerji Nazirliyi arasında elektrik və bərpaolunan enerji sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə Misir Ərəb Respublikasının Sərmayə və Azad Zonalar üzrə Baş Qurumu (GAFI) arasında 2024-2025-ci illər üzrə Birgə Fəaliyyət Planı"nın imzalanması əməkdaşlığın daha da möhkəmləndiyini təsdiqləyir. Eləcə də "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Neft və Mineral Ehtiyatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Niyyət Protokolu"nun, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında təcrübə mübadiləsi haqqında Anlaşma Memorandumu"nun imzalanması əlaqələrin daha da dərinləşdiyini göstərir. "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun imzalanması iqtisadi münasibətlərin daha geniş sahələri əhatə etdiyindən xəbər verir.

İmzalanma mərasimindən sonra Misir Prezidenti Əbdülfəttah əs-Sisi öz bəyanatında vurğulamışdı ki, aparılan danışıqlar ikitərəfli əlaqələrin müxtəlif sahələrdə möhkəmləndirilməsinə xidmət edir. Eyni zamanda qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər ətrafında müzakirələr aparılmışdı. O cümlədən inşaat, nəqliyyat, əczaçılıq, neft və infrastruktur sahələrində mümkün əməkdaşlıq imkanları müzakirə edilmişdi. Həmçinin iki ölkə arasında birgə komissiyanın fəaliyyətinin və növbəti iclasının təşkilinin önəmi qeyd olunmuşdu. Tezliklə komissiyanın növbəti iclasının keçirilməsi qərara alınmışdı ki, iqtisadi-ticari sahədə əlaqələr daha da inkişaf etsin.

Dövlətimizin başçısı öz bəyanatında eyni zamanda yeni nəqliyyat dəhlizləri ilə əlaqədar fikir mübadiləsi apardıqlarını demişdi: "Həm "Şərq-Qərb", həm "Şimal-Cənub" nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Azərbaycan ərazisində bütün infrastruktur yaradılıb və beləliklə, nəqliyyat-logistika sahəsində əməkdaşlıq üçün çox gözəl imkanlar açılmaqdadır".

Onu da vurğulayaq ki, ötən il Azərbaycanın evsahibliyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) Misir Ərəb Respublikası yüksək səviyyədə təmsil olundu.Tədbirdə Misir Ərəb Respublikasının Baş naziri Mustafa Mədbuli iştirak etdi.

***Flora SADIQLI, "Azərbaycan"***

# Borc idarəçiliyində risklər azaldılıb, xəzinə vəsaitlərinin idarə olunmasında effektivlik artıb




**Dövlət borcunun və maliyyə öhdəliklərinin idarə olunması sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində borc portfelinin strukturunda risklərin azaldılması, borc dayanıqlığının gücləndirilməsi və uzunmüddətli sabitliyin təmin edilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunub. Maliyyə Nazirliyindən verilən məlumata görə, cari il ərzində bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində dövlət istiqrazlarının dövriyyə müddəti artıb. Eyni zamanda dövlət büdcəsi vəsaitlərinin daha səmərəli idarə olunması məqsədilə vahid xəzinə hesabında olan milli valyuta vəsaitlərinin yerli banklarda depozitə yerləşdirilməsi mexanizminin tətbiqi büdcəyə əlavə gəlir gətirən effektiv alətə çevrilib.**

Son illər investorların tələbatının əsasən qısamüddətli (3 ilədək) dövlət istiqrazlarında cəmlənməsi nəticəsində 2025-ci il 1 yanvar tarixinə dövriyyədə olan dövlət istiqrazları portfelinin 91,4 faizi 1-3, 8,6 faizi isə 5-7 illik istiqrazlardan ibarət olub. Bu vəziyyət dövlət istiqrazları üzrə orta ödəmə müddəti (OÖM) göstəricisinin 1,47 ilə qədər azalmasına və ortamüddətli dövrdə dövlət istiqrazları üzrə əsas borc ödənişlərinin qısa müddətdə təmərküzləşməsi səbəbindən yenidən maliyyələşdirmə risklərinin artmasına gətirib çıxarıb.

Risklərin azaldılması üçün həyata keçirilmiş tədbirlər çərçivəsində 1-3 illik dövlət istiqrazlarının bir qismi 7-10 illik dövlət istiqrazları ilə əvəzləşdirilib. Nəticədə 2025-ci il 1 oktyabr tarixinə dövlət istiqrazları portfelində 1-3 illik dövlət istiqrazlarının payı 60,6 faizə endirilib, 5-10 illik dövlət istiqrazlarının payı isə 39,4 faizə yüksəlib. Bununla da Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzunmüddətli Strategiyanın 2022-2025-ci illər üzrə yenilənmiş məqsədlərinə uyğun şəkildə cari ilin ilk 9 ayı ərzində dövlət istiqrazları üzrə OÖM 2024-cü ilin sonuna nisbətən 2,4 dəfə artaraq 3,52 ilə çatdırılıb.

Eyni zamanda dövlət büdcəsi vəsaitlərinin daha səmərəli idarə olunması və büdcəyə əlavə gəlir gətirilməsi məqsədilə 2025-ci ildən etibarən Maliyyə Nazirliyi tərəfindən xəzinə hesabının milli valyutada olan vəsaitlərinin aktiv idarə edilməsinə başlanılıb. Bu çərçivədə xəzinə qalığının müəyyən hissəsinin kapitallaşma və aktivlərinin həcminə görə ən iri beş yerli bankda depozitə yerləşdirilməsi üzrə depozit hərracları keçirilir.







Xəzinə qalığının idarə edilməsi üzrə görülmüş işlər nəticəsində, 2025-ci il 1 oktyabr tarixinə milli valyutada olan xəzinə vəsaitləri üzrə 65,8 milyon, xarici valyutada olan vəsaitlər üzrə isə 9,3 milyon manat ekvivalentində olmaqla ümumilikdə 75,1 milyon manat məbləğində faiz gəliri əldə edilib. Bu göstərici 2024-cü il ərzində xəzinə vəsaitlərinin idarə olunmasından büdcəyə daxil olan 17,5 milyon manatla müqayisədə təxminən 4,3 dəfə çoxdur.

Beləliklə, həyata keçirilən tədbirlər dövlət borcunun idarə olunmasında risklərin azaldılmasına, borc portfelinin dayanıqlığının möhkəmləndirilməsinə və eyni zamanda dövlət büdcəsi vəsaitlərinin idarə edilməsində gəlirliyin artırılmasına mühüm töhfə verib.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində Türkmənistan Mədəniyyəti Günlərinin açılışı keçirilib




**Oktyabrın 13-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Türkmənistan Mədəniyyəti Günlərinin rəsmi açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən mədəniyyət nazirinin müavini Murad Hüseynov Türkmənistan Mədəniyyəti Günlərinin Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirib. O qeyd edib ki, Azərbaycan və Türkmənistan xalqlarını ortaq tarix, mədəni köklər və sarsılmaz dostluq münasibətləri birləşdirir.

Murad Hüseynov vurğulayıb ki, iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olması xalqların bir-birini daha yaxından tanımasına, qarşılıqlı mədəni mübadilənin genişlənməsinə və gələcəkdə birgə layihələrin reallaşdırılmasına əlverişli şərait yaradır.

Türkmənistan mədəniyyət nazirinin müavini Nursəhet Şirimov isə çıxışında Azərbaycan və Türkmənistan arasındakı mədəni əlaqələrin inkişafının əhəmiyyətini vurğulayıb. O bildirib ki, Türkmənistan Mədəniyyəti Günlərinin Azərbaycanda keçirilməsi xalqlarımız arasında dostluğun və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir. Nursəhet Şirimov həmçinin mədəniyyət sahəsində əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə ümidvar olduğunu ifadə edib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli deyib ki, xalqlarımızın ortaq tarixi və mədəni kökləri üzərində minilliklər boyu inkişaf edən mədəniyyətlərimiz bu gün də qarşılıqlı əlaqədədir.

"Birliyimiz və qardaşlığımız daim özünü göstərir. Mədəniyyət və ədəbiyyatlarımız ortaq dəyərlərimizin tərcümanı kimi inkişaf edib. Bu, Türkmənistan-Azərbaycan çoxəsrlik birliyinin yeni dövrdəki ən bariz təcəssümüdür", - deyə akademik vurğulayıb.

Sonra qonaqlar türkmən xalqının zəngin mədəni irsini əks etdirən fotosərgi ilə tanış olublar. Həmçinin Türkmənistanın musiqi nümunələri, milli geyimləri, dekorativ-tətbiqi sənət əsərləri və muzey eksponatları nümayiş olunub.

Daha sonra konsert proqramı təqdim olunub. Tədbir çərçivəsində türkmən rəqsləri və musiqi nömrələri nümayiş etdirilib.

Oktyabrın 15-dək davam edəcək Türkmənistan Mədəniyyət Günləri çərçivəsində Bakıda və Gəncədə tədbirlər keçiriləcək.

# TDT ölkələrinin diaspor qurumlarının rəsmiləri üçün ikinci təcrübə proqramına başlanılıb

**Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin diaspor qurumlarının rəsmiləri II "INTERNSHIP" (təcrübə) proqramında iştirak üçün ölkəmizdə səfərdədir.**



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, qonaqlar səfər çərçivəsində Fəxri xiyabanı, Şəhidlər xiyabanını, eləcə də Zəfər parkını ziyarət ediblər.

Fəxri xiyabanda görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin və akademik Zərifə Əliyevanın məzarları önünə gül dəstələri qoyulub, əziz xatirələri ehtiramla anılıb.

Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü naminə canından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib.

Zəfər parkını ziyarət edən qonaqlar xatirə daşının önünə gül dəstələri düzüblər.

Daha sonra Diasporla İş üzrə Dövlət Komitəsində təcrübə proqramının açılış tədbiri keçirilib. Komitə sədrinin birinci müavini Valeh Hacıyev Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli diaspor siyasəti, TDT-nin yaranması və komitə haqqında məlumat verib, tədbirin keçirilməsinin qurumlar arasında əməkdaşlığın genişləndirilməsindəki əhəmiyyətindən danışıb. Valeh Hacıyev Ulu Öndər Heydər Əliyevin fikirlərindən sitat gətirərək çıxışını yekunlaşdırıb: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir".

Ardınca Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Diasporuna Dəstək Fondunun fəaliyyətlərindən bəhs edən təqdimatlar nümayiş olunub.

Qazaxıstan Respublikasının "Otandastar" Fondunun vitse-prezidenti Alibek Jurkadam, Özbəkistan Respublikasının Millətlərarası Münasibətlər və Xaricdəki Soydaşlar məsələləri Komitəsinin nümayəndəsi Sardor Maxamadiyev, Şimali Kipr Türk Respublikasının Xarici İşlər Nazirliyinin Birinci katibi Dilşad Şenol, Türkiyə Respublikasının Xaricdə yaşayan Türklər və Əqrəba İcmaları İdarəsinin nümayəndəsi Ömer Seyithanoğlu və Macarıstanın Xaricdəki Macar İcmalarının Tədqiqat İnstitutunun tədqiqatçısı Daniel Gazso çıxış edərək ölkələrinin diaspor siyasətindən və görülən işlərdən danışıb, türk dünyasının həmrəyliyi, diaspor əməkdaşlığının gücləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Təcrübə proqramının iştirakçıları daha sonra Şuşa və Xankəndiyə yola düşüblər.

# "Mənəvi dəyərlər həftəsi"nin keçirilməsində məqsəd tələbələrə Qarabağın Azərbaycan mənəviyyatında əhəmiyyətini izah etməkdir

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Qarabağ Universiteti, komitənin tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı, Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində, Xocalı və Ağdərə rayonlarında xüsusi nümayəndəsinin dəstəyi ilə Qarabağda "Mənəvi dəyərlər həftəsi" keçirilir. Bu həftənin qeyd olunmasında əsas məqsəd tələbələrə Qarabağın Azərbaycan mənəviyyatında əhəmiyyətini izah etməkdir.**

Bunu AZƏRTAC-a müsahibəsində Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov bildirib.

O deyib: "Qarabağ Azərbaycan mənəviyyatının mərkəzlərindən biridir. Zəfərimizlə birlikdə artıq əsas mərkəzə çevrilib. Biz Qarabağ Universitetində mənəviyyat gününü qeyd edirik. Burada bizim məruzəçilərimiz çıxış edəcək. Onlar mənəvi dəyərin əhəmiyyətindən bəhs edəcəklər. Qarabağın Azərbaycan mənəviyyatındakı yerindən danışacaqlar. Qarabağın mənəvi dəyərləri həftəsində tələbələrimiz Qarabağın müxtəlif bölgələrində olublar. Bizim tarixi abidələrimizlə, eyni zamanda quruculuq işləri ilə tanış olublar. Füzuli rayonunda Qarabağ Zəfərinə gedən yolun başlanğıcı ilə, Azərbaycan tarixi, Azərbaycan mənəviyyatı üçün çox böyük əhəmiyyəti olan Xudafərin körpüsü ilə tanış olublar. Zəngilan məscidini, Laçın rayonunu ziyarət ediblər. Şuşa şəhərində mədəni abidələrimizi - Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Saatlı məscidi, Mehmandarovların kompleksini, eyni zamanda muzeyləri və həmçinin Qarabağda - Şuşa şəhərində olan bir çox abidələri ziyarət ediblər".

"Ağdam şəhəri, Ağdam məscidi də ziyarət olunacaq. Tələbələr daha sonra Bərdə şəhərində İmamzadə kompleksini ziyarət edəcəklər. Beləcə, Qarabağda mənəvi dəyərlər həftəsi bitmiş olacaq", - deyə A.Şirinov əlavə edib.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



# Ön cəbhəyə 5 il əvvəlki ezamiyyətdən qalan xatirə

Döyüşlərdən yenicə qayıtmış zabit və əsgərlərlə söhbət etdikcə qürur hissləri keçirirdik. Qarşımızda döyüşən Azərbaycan Ordusunun hərbçiləri oturmuşdular. Onların üzlərindən, gözlərindən qürur, fərəh süzülürdü. Bu qürurdan, bu fərəhdən hamımıza pay düşürdü.

Əks-həmlə əməliyyatlarında fərqlənənlərdən biri də əsgər Süleyman Kazımov olmuşdu. Silahını sinəsinə sıxmış əsgərin üzü gülürdü. Hiss olunurdu ki, ürəyi qisas hissi ilə aşıb-daşır. Süleyman iştirakçısı olduğu döyüşlərdən söz açdı: "Səhər ertədən biz "Həyəcan" çağırışı ilə ayağa qaldırıldıq. Məlum oldu ki, ermənilər qəflətən mövqelərimiz üzərinə hücuma keçiblər. Vaxt itirmədən yurdumuzun müdafiəsinə atıldıq. Gərgin döyüşlər gedirdi, atəş səsləri yeri-göyü lərzəyə gətirirdi. Komandanlıq tərəfindən verilən əmr və tapşırıqları yerinə yetirərək əlverişli mövqe tutub düşmənin hücumunu dəf edirdik. Qısa müddətdə qəsbkarların hücumlarının qarşısını aldıq. Bir azdan komandir işğalçıların mövqelərinə doğru irəliləməyi əmr etdi. Ətrafa diqqət kəsilə-kəsilə qabağa getdik. Qəflətən işğalçıların gözləmədikləri istiqamətdən hücum etdik. Bir göz qırpımında yağıların başının üstünü aldıq. Ermənilər güclü əks-həmlələrimizdən qorxaraq silahlarını atıb başlarını götürüb qaçmağa başladılar. Mövqelərində xeyli sayda silah-sursat və meyit qalmışdı".

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə gənc zabit Hüseyn Muradov da böyük igidlik və qəhrəmanlıq göstərib. Əməliyyatdan yenicə qayıtmış döyüşçü nə qədər yorğun olsa da, üzü gülürdü. Onunla söhbətimiz çox maraqlı keçdi, yaddaqalan oldu. Dedi ki, ermənilərin qəfil həmləsi cəsur hərbçilərimiz tərəfindən qısa müddət ərzində dəf edildi: "Vaxt itirmədən əks-hücuma keçdik. İlk dəqiqələrdə düşmən müqavimət göstərsə də, bir müddətdən sonra qarşımızda dayana bilmədi, getdikcə müqaviməti zəiflədi. Hiss olunurdu ki, qüvvələri tükənir, silah-sursatları azalır. Qələbəyə, zəfərə hesablanmış əks-hücumumuzu davam etdirərək düşməni tutduğu mövqelərindən qovub çıxartdıq. Elə ilk döyüşdə qəsbkarların qüvvələrini darmadağın etdik. Xeyli canlı qüvvəsini, 2 zirehli texnikasını, şəxsi heyətlə və silah-sursatla dolu olan 3 avtomobilini itirən düşmən geri çəkilməyə məcbur oldu. Əks-hücumlarla başlanan bu döyüşlər bir daha göstərdi ki, Azərbaycan Ordusu güclü və məğlubedilməzdir. Düşmən mövqelərini nə qədər möhkəmlətsə də, səngərlərini nə qədər dərin qazsa da, betonu qalın töksə də, güllələrimizdən yayına bilmədi. Gərgin çəkən ilk döyüş qələbəmizlə başa çatdı. Ermənilər illərdən bəri idi ki, həmin mövqelərdə möhkəmlənmişdilər. Amma biz onları darmadağın edəcəyik. İşğalçıları təkcə bu mövqelərindən deyil, bütövlükdə Qarabağdan vurub çıxaracağıq. Bizim mülki əhali ilə heç bir işimiz yoxdur, onlara güllə atmırıq. Torpaqlarımızı yalnız erməni işğalçılarından təmizləyirik. Əminliklə deyə bilərəm ki, yaxın vaxtlarda bayrağımızı Şuşanın, Xankəndinin ən uca zirvələrindən asacağıq".

Söhbətimiz zamanı öyrəndik ki, gənc zabit Hüseyn Muradov Aprel döyüşlərinin qəhrəmanlarından biri olub. Keçirilən əməliyyatlar zamanı Goranboyun Tapqaraqoyunlu kəndi istiqamətində vuruşub. Ordumuz üçün uğurla başa çatan həmin döyüşlərdə düşmənin bir neçə mövqeyinin darmadağın edilməsi əməliyyatında iştirak edib.

O da məlum oldu ki, gənc zabit iki övlad atasıdır. Vətən üçün iki oğul böyüdür. Onlar gələcəkdə atalarının igidliyi və qəhrəmanlığı ilə həmişə fəxr edəcəklər.

Zabit Amil Mikayılov da əks-həmlə əməliyyatlarında iştirak edib, qanlı döyüşlərin iştirakçısı olub. Söhbət zamanı dedi ki, üstümüzə qəfil hücum çəkən yağıların həmlələrini qətiyyətlə dəf edəndən sonra əks-hücuma keçdik: "Çətinliklə də olsa, üstünlüyü ələ alıb yağıları geri oturtduq. Düşmən üzərində qələbəmiz naminə hamımız hünərlə, cəsarətlə döyüşürdük. Çünki torpaqlarımızın azadlığı, Vətənin bütövlüyü uğrunda vuruşuruq. Döyüşlər qələbəmizlə başa çatdı. Erməni işğalçılarını neçə illərdən bəri möhkəmləndikləri mövqelərindən vurub çıxardıq. Böyük strateji əhəmiyyəti olan yüksəkliklər erməni işğalçılarından azad olundu".

Döyüşdən yenicə qayıtmış gənc zabit Rabil Yaqublunun da ürəyi dolu idi. Buna görə də iştirakçısı olduğu döyüşlərdən həvəslə danışdı. Dedi ki, bölüyün şəxsi heyəti bu savaşda böyük hünər və rəşadət göstərdi: "Hamımız torpaqlarımızı işğalçılardan təmizləmək, düşməni məğlub etmək, qələbə naminə vuruşduq. Ermənilər dəqiq və güclü zərbələrimiz qarşısında dayana bilməyib geri çəkildilər. Mövqelərimiz üzərinə hücum çəkməsi düşmənə çox baha başa gəldi. Qəsbkarlar həm canlı, həm də texnika sarıdan ağır itkilər verdilər. Əks-həmlələrimiz o qədər güclü və sürətli oldu ki, düşmən həm silah-sursatını, həm də meyitlərini döyüş meydanında qoyub qaçdı. Elə ilk əməliyyatda ermənilərin dizini qırdıq, burunlarını ovduq, gücünü zəiflətdik. İşğalçılara məğlubiyyətin, itkilərin acısını dadızdırdıq. Qarşıdakı döyüşlərdə də onları həyata həsrət qoyacağıq. Qarabağ müharibəsində qələbə yalnız bizim olacaq. Çünki biz haqlıyıq, öz torpaqlarımız uğrunda, illərdən bəri yaşadığı yerlərdən didərgin düşmüş məcburi köçkünləri doğma ocaqlarına qaytarmaq uğrunda vuruşuruq. Bizim üçün bu, çox müqəddəs bir vəzifədir. Cəbrayıl və Füzulinin kənd və qəsəbələrinin azad olunması xəbəri hamımızı sevindirdi. İnanıram ki, belə sevinc dolu günlərimiz hələ çox olacaq".

Döyüşdən yenicə qayıtmış əsgər Mehrab Axundovun ovqatı yüksək idi, gözlərində qələbə sevinci parlayırdı. Elə söhbətə də bu ovqatla başladı: "Müharibə şəraitində yaşadığımıza görə bilirdik ki, döyüşlər hər an başlaya bilər. Ona görə də biz mövqelərimizdə həmişə ayıq-sayıq dayanırdıq. Bu yerlərin çox böyük strateji əhəmiyyəti olduğu üçün hələ əvvəlki illərdə ermənilər bir neçə dəfə atəşkəs rejimini pozaraq mövqelərimizə hücum etmişdilər. Hər dəfə də onların qarşısını qətiyyətlə almış, dərslərini yaxşıca vermişik. Bu dəfə də elə oldu. Səhərə yaxın işğalçılar mövqelərimiz üzərinə hücuma keçdilər. Bir anda qüvvələrimizi səfərbər edib mövqelərimizin müdafiəsinə atıldıq. Düşmən geriyə çəkilmək istəmirdi. Üç-dörd yağının dayandığım istiqamətdən irəlilədiyini gördüm. Onların çox qabağa gəlməsinə yol vermək olmazdı. Başımı qaldırıb atəş açsaydım, məni görüb vura bilərdilər. Ona görə ləngimədən əl qumbarasını döyüş vəziyyətinə gətirib onların üstünə atdım. Bir neçəsi yerə sərildi. Vaxt keçdikcə düşmənin zəiflədiyi hiss olunurdu. Bir azdan komandir əks-hücum əmri verdi. Əlverişli isiqamətlərdən atəş aça-aça yağıların üstünə şığıdıq. İşğalçılar qəfil əks-həmlələrimiz qarşısında dayana bilməyərək mövqelərindən çıxıb qaçmağa başladılar. Elə ilk döyüşdə düşmənin xeyli silah-sursatını ələ keçirdik. Uğurla, zəfərlə başa çatan bu savaş göstərdi ki, Azərbaycan əsgəri cəsarətlidir, qəhrəmandır, məğlubedilməzdir".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kənan Məmmədov nişançıdır. Silahının nişangahına tuş gələn hədəfləri çox dəqiq sıradan çıxarır. Torpaqlarımızın azadlığı uğrunda döyüşlər başlanan gündən indiyə qədər düşmənin onlarla canlı qüvvəsini məhv edib. Dedi ki, "həyəcan" çağırışı verilən kimi ön mövqelərə yollandıq. Ermənilər səhərə yaxın mövqelərimizə hücuma keçmişdilər, gərgin döyüş gedirdi. Bölüyümüzün zabit və əsgərləri bir addım olsun belə geri çəkilmədən vuruşur, düşmənə sarsıdıcı zərbələr endirirdilər. İşğalçılar döyüşə əlavə qüvvələr cəlb edib həmlələrini nə qədər gücləndirməyə çalışsalar da, heç nəyə nail ola bilmədilər. Quldurların atəş nöqtələri zəifləyən kimi əks-hücuma keçmək barədə əmr verildi. Zabit və əsgərlərimiz düşməni darmadağın etdilər. Bəlkə də ermənilər hücuma keçəndə qalib gələcəklərinə ümid bəsləyirdilər. Bölüyümüzün şəxsi heyəti qəhrəmancasına vuruşaraq düşmənin bütün ümidlərini altüst etdi. Bir neçə strateji əhəmiyyətli yüksəklik işğaldan azad olundu". Kənan Məmmədov onu da dedi ki, döyüşlər başlanan gündən indiyə qədər snayperlə neçə-neçə ermənini məhv edib. Zabit və əsgərlərlə söhbətimiz xeyli çəkdi. Danışılanlar maraqlı olduğuna görə vaxtın, zamanın necə keçdiyini hiss etmədik. Bu cəsur oğullardan qaranlıq düşəndə ayrıldıq. Cəsarətlərini, hünərlərini gördüyümüzdən, eşitdiyimizdən bir daha əmin olduq ki, xalqın fəxr etdiyi bu oğulların zəfər soraqlarını bundan sonra hələ çox eşidəcəyik.

Uzaqdan atəş səsləri eşidilirdi. Başımızı qaldırıb göy üzünü seyr etdik. Bayaqkı buludla dolu səmadan əsər-əlamət qalmamışdı. Sanki Ay bu gün həmişəkindən işıqlı və parlaq görünürdü, ulduzlar daha gur bərq vururdu. Elə bil Ay da, ulduzlar da bizə qoşulub zəfərimizə sevinirdi. Doyunca ciyərlərimizə çəkdiyimiz soyuq havadan da qələbə qoxusu gəlirdi.

Gecə yarıdan keçəndən sonra ön mövqelərdən dayaq məntəqəsinə döndük. Gecənin bu vaxtında da əhalimiz ordusuna yardım gətirirdi. Adını unutduğum sürücü dedi ki, yolun qırağındakı təndirlərdən birinin yanında keçəndə qadın bizə 6 çörək verdi. Dedi ki, bunu əsgərlərə verin. Az keçmiş ortayaşlı bir hərbçi əlində böyük bir çanta gətirib dayaq məntəqəsinə verdi. Bunu oğlunun göndərdiyini bildirdi. Çantanın içində müxtəlif şirələr, şirniyyatlar var idi. Hərbçi söylədi ki, oğlu velosiped almaq üçün pul yığırmış. Görüb ki, hamı orduya yardım göstərir, o da yığdığı vəsaiti gətirib mənə verdi ki, bunları ermənilərlə vuruşan əsgərlərimizə çatdırın.

Çox qürurverici mənzərə idi. Müharibənin davam etdiyi günlərdə Azərbaycan xalqı qalib ordusunun arxasında dayanmışdı.

*(Ardı var)*

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

*(Əvvəli qəzetin 11 oktyabr 2025-ci il tarixli sayında)*

## ZƏFƏR gündəliyi
## 14 oktyabr 2020-ci il

# *İlham ƏLİYEV:* "Artıq təmas xətti yoxdur, Azərbaycan Ordusunun xilaskarlıq missiyası davam edir"

### Ali Baş Komandandan növbəti müjdəli xəbər




Ali Baş Komandan İlham Əliyev rəsmi "X" səhifəsində paylaşım edərək xalqa növbəti müjdəli xəbəri verib:

"Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### Tərtər, Ağdam və Ağcabədinin ərazisi artilleriya atəşinə tutulub

Səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulub. Ordumuz tərəfindən adekvat tədbirlər görülüb.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayıblar.

### Düşmənin ballistik raket kompleksi sıradan çıxarılıb



Səhər saat 08:36 radələrində düşmən tərəfindən Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonuna yaxın sərhədyanı ərazilərdə növbəti əməliyyat-taktiki ballistik raket kompleksinin start vəziyyətinə gətirildiyi müşahidə edilib.

Mülki insanlar arasında tələfata səbəb olmaq, mülki infrastruktura xələl yetirmək məqsədilə operativ-taktiki raketlər Gəncə, Mingəçevir və ölkəmizin digər şəhərlərinə doğru hədəflənib. Legitim hərbi hədəf kimi start vəziyyətində olan raketlər qabaqlayıcı dəqiq zərbə ilə sıradan çıxarılır.

### Bölmələrimiz əks-həmlə əməliyyatı həyata keçirib

Cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində vəziyyət gərgin olaraq qalıb.

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın edib və görülən tədbirlər nəticəsində itki verərək geri oturdulub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd PDM-2, 1 ədəd KS-19 zenit topu, 2 ədəd D-30 haubitsa topu, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

### Düşmənin 3 ədəd "Elbrus" ballistik raket qurğusu məhv edilib



Hərbi İnformasiya Mərkəzində brifinq keçirilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin qərargah rəisi, general-mayor İkram Əliyev mülki əhalini hədəfə alan Ermənistan silahlı qüvvələrinə məxsus operativ-taktiki komplekslərin taktiki xüsusiyyətləri və onların imkanları barədə məlumat verib.

Qeyd edilib ki, 9K72 operativ-taktiki raket kompleksi (OTZK) 8K14 raketi ilə birgə canlı qüvvəni, idarəetmə məntəqələrini, aerodromları və digər əsas obyektləri məhv etmək üçün təyin olunur. Bu kompleks silahlanmaya 1967-ci ildə qəbul edilib. Raketin atəş məsafəsi 50-300 kilometr, maksimal uzaqlığa uçma vaxtı 5 dəqiqə, start çəkisi 5862 kiloqram, doldurulmamış raketin çəkisi isə 2076 kiloqramdır. Uzunluğu 11 metr 164 santimetrdir. Korpusunun diametri 880 millimetrdir. Kompleksin ümumi çəkisi 37 ton, döyüş heyəti 8 nəfərdən ibarətdir.

Əgər bu raket atılsaydı, o, hətta Bakının da ətrafına düşə bilərdi. Yəni bu sistemlər Dağlıq Qarabağ ərazisinə keçsəydi, həmin sistemlərin atəş məsafəsi Bakıdan da uzağı hədəfləyərdi.

Brifinqdə o da vurğulanıb ki, gecə saat 01:00 radələrində iki ədəd və səhər 08:30 radələrində bir ədəd olmaqla, ümumilikdə, üç ədəd "Elbrus" ballistik raket qurğuları ordumuz tərəfindən aşkarlanaraq məhv edilib.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***



# REGİONLAR

## Şirvanda şəhidlərin xatirəsi anılıb

**Şirvan şəhərində Vətən müharibəsi şəhidləri Xəqani Məmmədovun, Nicat Hüseynovun, Bəxtiyar İslamovun və Emil Hümbətovun anım günləri ərəfəsində məzarları ziyarət olunub.**



Şəhər rəhbərliyinin, hüquq-mühafizə orqanlarının, regional təşkilatların, idarə və müəssisələrin nümayəndələrinin, şəhid ailəsi üzvləri və müharibə iştirakçılarının iştirak etdikləri tədbirdə ŞİH-in başçısı İlqar Abbasov Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində əldə etdiyi möhtəşəm tarixi Zəfərdən, bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan böyük quruculuq işlərindən, haqq savaşımızda şəhidlik zirvəsinə ucalan igid Vətən övladlarının xatirəsinin əziz tutulmasından danışıb. Digər çıxış edənlər də şəhidlərin qəhrəmanlığından, döyüş yollarından və 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun şanlı qələbəsindən bəhs ediblər.

Tədbirdə həmçinin Vətən müharibəsi şəhidləri Röyal Məmmədovun və Əli Mənəflinin doğum günləri münasibətilə məzarları ziyarət olunub, xatirələri anılıb.

*"Azərbaycan"*

## Yerli şirələr keyfiyyəti ilə seçilir

**Qusarda meyvə və tərəvəz şirələri istehsalı üzrə ixtisaslaşmış müəssisə fəaliyyət göstərir. Müəssisənin rəhbəri sahibkar Arif Rüstəmov müəssisədə bütün işlərin texnologiyalar vasitəsilə həyata keçirildiyini deyir.**



Yerli məhsullardan təbii və keyfiyyətli şirələr istehsal edən müəssisə iqtisadi baxımdan Qusarda öncül yerlərdən birini tutur, rayonda keçirilən sosial layihələrdə yaxından iştirak edir.

Müəssisədə 22 nəfər daimi işlə təmin olunub. Burada səmərəli iş mühiti yaradılıb və əmək intizamı yüksək səviyyədədir. İstehsal olunan hər bir məhsul yalnız təbii meyvədən alınır və bu səbəbdən alıcıların rəğbətini qazanıb.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

### Pambıq yığımı

● Reportaj



## Bu günlər əsl pambıq havasıdır

### Salyanlı fermerlər günəşli keçən hər saatdan səmərəli istifadə etməyə çalışırlar

**Səhər saat 11 ərəfəsidir. "Niva"nın sükanı arxasında oturan pambıqçı fermer Ramal Abdullayev uzaqdan pambıqyığan maşınların sahənin kənarında dayandığını görüb təəccüblə: "Balam, bunlar niyə işə başlamayıblar?" - deyə özü-özünə sual verir.**

2-3 dəqiqə keçməmiş onların yanına çatırıq. Elə bu vaxt sahənin o biri tərəfindən maşınla gələn baş aqronom Füzuli Quliyev də dayandığımız yerə yetişir. O, maşından düşüb bizimlə hal-əhval tutur və yeyin addımlarla sahəyə girir. Kolların arası ilə irəliləyib bir neçə koldan pambıq lopasını götürür, diqqətlə nəzərdən keçirir. Görünür, heç bir nəmliyi olmadığını yəqin edərək hər iki kombaynçıya əli ilə "İşə başlamaq olar!" işarəsini verir.

Sürücü mexaniklər Hakim Orucov və Rafiq Məcidov kombaynları işə salaraq cərgələr arasına girirlər. "Tarla gəmiləri" irəlilədikcə bayaqdan ağappaq dona bürünən cərgələr, kollar paltarlarını soyunmuş kimi görünür. Fermer Ramal Abdullayev:

- Amerika istehsalı olan "Conder" markalı bu maşınların tayı-bərabəri yoxdur. Gördüyünüz kimi, kollarda bir ağartı belə qalmır, - deyir.

Baş aqronom F.Quliyev fermerin sözünə qüvvət verir:

- Heç onun kabinəsinə qalxmısan? Bilirsən necə rahatdır?! Kondisioneri bir qram da olsun tərləməyə qoymur adamı. Motorun, bütün hissələrin necə işləməsini göstərən cihazlar sürücü mexanikin yaxın köməkçisidir. Hər hansı hissədə nasazlıq yaranan kimi xəbərdarlıq işarəsi verilir. Bütün bunları nəzərə alsaq, istehsalçılar ona nahaq yerə 500 min manata yaxın qiymət qoymayıblar.

Kombaynlar uzaqlaşandan sonra fermer R.Abdullayevdən bu il neçə hektarda pambıq əkdiyini, hansı problemlərlə üzləşdiyini soruşuruq. Deyir ki, çətinlik olmasa, bəlkə həyatın mənası da olmaz. "Hər şey çətinliklə, əziyyətlə, gərgin əməklə, alın təri ilə qazanıldıqda şirin olur, mənalı olur. O zaman qazandığın pulun-malın dəyərini, qədrini də bilirsən. Bəzi cavanlar, görürsən, sürdüyü maşını yerindən elə tərpədir və ya döngələrdən elə dönür, dayananda da tormozu elə verir ki, o dəqiqə altındakı maşını öz pulu ilə almadığını, özü qazanmadığını bilirsən. Zəhmət çəkib öz puluyla maşın alsaydı, belə hoqqabazlıq eləməzdi".

Bir anlıq baxışlarımız toqquşur. Biz fermerin özünün də, əslində, necə gənc olduğunu bu zaman hiss edirik. Sanki fikrimizi duymuş kimi davam edir:

- 1985-ci il təvəllüdəm. Təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, həyatda indiyədək nəyə nail olmuşamsa, öz əməyim hesabınadır. Əlimə düşən pulu hədər yerə sərf etməmişəm. Artıq 6-cı ildir pambıq əkib-becərirəm. Əvvəl 3 hektarla başladım. Sonra əlimə pul gəldikcə torpaq aldım, icarəyə götürdüm. Keçən il 30 hektarda pambıq əkib-becərmişdim. Yəqin siz də bilirsiniz, bu qədər pambığı becərmək asan iş deyil. Düzdür, "Azərpambıq" MMC-nin kəndimizdə yerləşən filialı ilə bağladığım müqaviləyə əsasən, mənə və müqavilə bağlayan bütün fermerlərə hər sahədə yaxından köməklik göstərilir. Sahə aqronomları şumdan tutmuş yığıma qədər hər gün yanımızda olub göstəriş və tövsiyələrini verirlər. Texnikalar, gübrələr, sovkaya və digər ziyanvericilərə qarşı mübarizə aparmaq üçün dərmanlarla bizi təmin edirlər. Bunlardan əlavə, alaq otları təmizlənən zaman biz pambıqçılara avans da verirlər. Artıq daha nə kömək ola bilər?! Qalır işə can yandırmaq, şirkətlə bağladığımız müqavilənin şərtlərinə əməl etmək. Tək-tək adamlar bunu dərk etmədiklərindən payız gələndə məhsul götürə bilmir, ili borcla başa vururlar.

"Cari ildə neçə hektarda pambıq əkmisiniz" sualımıza cavab verərək bildirir ki, 60 hektarda pambıq əkib, sahələrdə 5 dəfə kompleks becərmə həyata keçirib, hər hektara 300 kiloqram azot gübrəsi verib, 1 dəfə kökdənkənar yemləmə aparıb, bitkiləri 2 dəfə sulayıb. Becərmə vaxtlarında hər gün orta hesabla 50 nəfər qız-gəlin pambıq cərgələrini alaq otlarından təmizləyib. Zəhmət haqqı olaraq hər gün hər kəsə 20 manat pul ödəyib. Bunun üçün bankdan 30 min manata kimi kredit götürüb. Pambığın becərilməsi zamanı isə ən yaxın köməkçisi anası Şölə xanım və həyat yoldaşı Xəyalə xanım olub. 11-ci sinifdə təhsil alan oğlu Mahmud da yay aylarında - məktəblilərin tətili zamanı atasına kömək edib.

Çəkilən zəhmət öz bəhrəsini vermişdir. Sahələrdə müəyyən fasilələrlə dərmanlama (defolyasiya) işi görülmüşdür. Dərmanlanan sahələrin yarpağı tökülmüş, hər qoza pardaqlanıb açılaraq "ağ qızıl"a dönmüşdür. Yetişdirilən məhsulun tez və itkisiz yığılması üçün hər bir fermer kimi, R.Abdullayev də gecəli-gündüzlü çalışır. Hələlik 10 hektarda birinci üz yığım aparılıb. Nəticə ürəkaçandır - hər hektardan 45 sentner. Lakin bu, fermeri razı salmır. Əl dəyməmiş yerlərdə məhsulun daha çox olduğunu, yığımın sonunda məhsuldarlığın 50 sentner olacağını deyir.

Sahənin o başına gedib qayıdan "Conder"lərin bu başa az qaldıqda bunkerlərinin dolduğunu bildirən işıqları yanıb-sönməyə başlayır. Arxalarına lafet qoşulmuş traktorların sürücüləri Ziyafət İsmayılov və Alim Rəhimov: "Ay maşallah!" - deyib bir göz qırpımında traktorların kabinələrinə qalxaraq motoru işə salır və lafetləri bunkerlərin yaxınlığına verirlər.

Onu da qeyd edək ki, Salyan rayonunun Qızılağac kəndində yerləşən və fermer Ramal Abdullayevin müqavilə bağladığı "Azərpambıq" MMC-nin buradakı filialı cari ildə 1000 hektarda pambıq yetişdirib. 317 fermerin məhsul yetişdirdiyi sahələrdə indi qızğın iş gedir. Seçmə yolu ilə pambıq yığımına sentyabrın 24-də başlanılıb. Filialın direktoru Səxavət Səmədovun dediyinə görə, indiyədək 1500 tondan çox məhsul toplanıb. Tədarük olunan pambığın itkisiz yığılması, keyfiyyətli şəkildə tayalara vurularaq qorunması, lazımi qədər havalandırılması üçün bütün texnoloji tədbirlər vaxtında görülür.

"Azərpambıq" MMC-dən başqa, Salyanda digər 3 şirkətin - "P-Aqro" MMC, "PRİME Cotton" MMC, "Azərtəsərrüfat" MMC şirkətlərinin filialları da fəaliyyət göstərir. Bu 4 müəssisə ilə ilin əvvəlində 1130 nəfər fermer müqavilə bağlayaraq 9 min 669,6 hektarda pambıq yetişdirməyi öhdəsinə götürüb. Becərmə dövründə sahələrdə 5 - 8 dəfə arası kompleks becərmə aparılıb. 13 min 408 hektara azot və karbamid gübrəsi verilib. 6 min 407 hektarda alaq otlarına qarşı, 40 min 805 hektarda isə xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri həyata keçirilib, 16 min 230 hektarda ketmənləmə işi görülüb.

Sentyabr ayında havaların qeyri-sabit keçməsi pambığın yetişgənliyinə müəyyən qədər mənfi təsir etdi. Oktyabr ayında isə havaların xoş, nisbətən günəşli olması pambıqçıları sevindirir. Rayonda olan 48 kombaynın iş əmsalından səmərəli istifadə edilməsinə, boşdayanma hallarına yol verilməməsinə xüsusi diqqət yetirilir. Məqsəd isə böyük zəhmət və vəsait hesabına başa gələn pambığı "ağ qızıl" kimi dəyərləndirib vaxtında və itkisiz yığmaqdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Həm istehsalçı, həm də istehlakçı üçün sərfəli

### Soyuducu anbarlar qış mövsümündə əhalinin təzə meyvə və tərəvəzlə təminatına, fermerlərin isə daha çox qazanmasına imkan verir

**İqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən Tovuzda bu sahəyə diqqət ildən-ilə artır. Bu səbəbdən dövlətin təsərrüfat sahiblərinə göstərdiyi dəstəkdən yararlanan rayon fermerləri hər ili uğurla yola salmağa, bol kənd təsərrüfatı məhsulları istehsal etməyə çalışırlar.**

Hazırda istehsalçılar min bir əziyyətlə yetişdirdikləri məhsullarını vaxtında yığmaq üçün səfərbər olublar. Əvvəlki illərdə olduğu kimi, bu il də əksər sahələr üzrə yüksək göstəricilər qazanan tovuzlu fermerlər əkinçilik üzrə də fərqlənirlər.

Rayonda üzümçülük ənənəvi sahə olsa da, günü bu gün də rayonlaşdırılmış üzüm sortlarından ibarət yeni plantasiyalar salınır. Bu hesaba üzüm bağlarının sahəsi 1150 hektara çatdırılmışdır ki, onun da 744 hektarı süfrə sortlarıdır. Təkcə bu il rayonda 19 hektar yeni üzüm bağı salınmışdır.

Ölkədə ikinci böyük kartof istehsalçısı olan Tovuzda bu il 4492 hekar sahədə kartof əkilmişdir. Əldə etdiyimiz son məlumata görə, 4126 hektardan çox sahənin hər hektarından 301,9 sentner olmaqla 124562 tondan çox məhsul yığılmışdır. Hazırda yığım davam edir.

Yeri gəlmişkən, bir məsələyə də toxunmaq istərdik. Bu, soyuducu, anbar məsələsidir. Artıq rayonda bu sahədə də bir sıra uğurlu addımlar atılmış, əvvəllər mövcud olan problemlər demək olar ki, aradan qaldırılmışdır. Hazırda rayonda hüquqi və fiziki şəxslərin 39 soyuducu anbarı var. Onlardan ən böyüyü 10 min tonluqdur. Qalan 39 soyuducu anbarın ümumi həcmi isə 31,68 min tona yaxındır. Amma rayonda daha aztutumlu soyuducu anbarlar da var. Məsələn, Aşağı Quşçu kəndində evlərin həyətyanı sahələrində kustar üsulla hazırlanmış və hər birinin həcmi 50-150 ton olan 30 soyuducu anbar mövcuddur. Həmin anbarlarda əsasən kartof, üzüm və xurma saxlanılır.




Onu da qeyd edək ki, Tovuzda soyuducu anbarların sayı hər il artmaqdadır. Aşağı Quşçu kənd sakini Sabit Cəfərov deyir ki, soyuducu anbarların xidmətindən istifadə etmək onlar üçün sərfəlidir. Dərim vaxtı üzümün qiyməti 50-60 qəpikdirsə, payız-qış mövsümündə ikiqat qiymətə satışını həyata keçirir: "Bizim kəndimizin sakinləri meyvəçilik, əsasən də üzümçülüklə məşğul olur. Sentyabrda üzümün dərimi başlayır. Həmin ay məhsulu yığıb satırıq. Daha çox gəlir əldə etmək üçün isə soyuducu anbarlarda saxlamaq sərfəlidir. Soyuducu anbarlara yığdığımız məhsulun hər bir kilosuna cüzi miqdarda xərcimiz çıxır".

Fermer Kərəm Səfərovun 700 tonluq soyuducu anbarı var. Üç kameradan ibarət anbarda əsasən xurma və kartof saxlanılır. Deyir ki, icarəyə də məhsul götürür. Xurma yeşiklərinin birinin saxlanması iki ay müddətinə ona 1 manat 20 qəpiyə başa gəlir.

Bu sahədə yetərincə təcrübə qazanmış Şəhadət Mehralıyevin də 400 ton tutumuna malik soyuducu anbarı var. Onun quraşdırılmasına 100-150 min manat xərcləyib. Deyir ki, soyuducu anbaların qurulması üçün nəzərdə tutulan izolyasiya avadanlıqları, materialları dövlət tərəfindən güzəştli qiymətlərlə verilsə, yaxşı olardı.

Söhbət zamanı fermerlər onu da bildirdilər ki, soyuducu anbarlardan istifadə edərkən onların xidmətindən tam yararlanmaq və ən başlıcası, hansı kənd təsərrüfatı məhsulunu necə və hansı müddətə, hansı formada saxlamaq, keyfiyyətlərini dəyişmədən, orqanizmə ziyan olmadan qoruyub istehlakçıya çatdırmaq da vacib şərtlərdəndir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Naftalanın Qasımbəyli kəndinin su problemi həll olunub

**Bu münasibətlə keçirilən tədbirdə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin müavini İlham Bayramov, Regional Su Meliorasiya Xidmətinin İdarə Heyətinin sədri Zakir Quliyev, Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və kənd sakinləri iştirak etmişlər.**



Tədbirdə çıxış edənlər bildirmişlər ki, Qasımbəyli kəndində əhalinin mərkəzləşdirilmiş su təchizatı sisteminin yaradılması üçün Naftalan şəhərinin mövcud su təchizatı sisteminin imkanlarından istifadə edilməklə kənddaxili şəbəkə sistemi inşa olunmuşdur. Bunun üçün 40-100 millimetr diametrli 8,7 kilometr su xətti çəkilməklə 140 abonentin su təchizatı yaxşılaşdırılmışdır. Əhaliyə verilən suyun qeydiyyatının aparılması və sudan qənaətlə istifadə edilməsi məqsədilə hər bir abonent su sayğacı ilə təchiz edilmişdir.

Açılış mərasimində iştirak edən kənd sakinləri indiyədək su təminatı baxımından ciddi çətinliklərlə qarşılaşdıqlarını bildirmiş və bu sahədə problemlərin həllinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə etmişlər.

Qeyd edək ki, hazırda Naftalan şəhərinin mövcud su təchizatı şəhər daxilində 3 su anbarı kompleksi, 2 nasos stansiyası, 43,6 kilometr su şəbəkəsi kompleksi istismar edilir.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Naxçıvanda Vergi Ödəyicilərinə Xidmət mərkəzlərində 33 mindən artıq şəxs qəbul edilib

**Cari ilin yanvar-sentyabr aylarında Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Ödəyicilərinə Xidmət mərkəzləri tərəfindən ümumilikdə 33 min 110 şəxs qəbul edilib.**

Dövlət Vergi Xidmətindən AZƏRTAC-a bildirilib ki, mərkəzlərdə vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması, vergi uçotu, qeydiyyat, bəyannamələr, cari vergi ödəmələri və s. məsələlərlə bağlı 44 min 450 xidmət göstərilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 6,99 faiz çoxdur.

Bu ilin yanvar-sentyabr aylarında vergi ödəyicilərinə 664 min 698 məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub) göndərilib. Dövr ərzində vergi ödəyiciləri ilə 88 görüş keçirilib, 365 sayda ünvanlı xidmət göstərilib. Həmin dövrdə 2569 müraciət üzrə 4568 "ASAN İmza" sertifikatı verilib.





# Mədəniyyət





● Sənətkarlarımız

# İstedadı və səsi ilə qəlblərdə yaşayır

**O, rəsm dərnəyinə də gedib. Qılıncoynatma, üzgüçülük, gimnastika, güləş, futbol, atçılıq idman növləri ilə də məşğul olub. Televiziyadakı, kinostudiyadakı işindən əlavə, "Bənövşə" uşaq xorunda, "26-lar" adına Mədəniyyət Evində, indiki T.İsmayılov adına Uşaq Yaradıcılıq Mərkəzində fəaliyyət göstərən dram dərnəklərinin üzvü də olub. O, macəraçı deyildi. Ona özünü axtaran adam da demək olar...**

Nəhayət, aktyorluq sənətinin üstündə dayandı. O, elə bir istedad sahibi idi ki, onunla birgə dram dərnəklərinə gələnlər məhz onun həvəsinə aktyorluq sənətini seçib görkəmli sənətkar olublar. Xalq artisti Həsənağa Turabov deyib: "Mən başqa sənətin dalınca gedəcəkdim, bax, bu Ramizə baxıb aktyorluğu seçdim". Söhbət Azərbaycanın Xalq artisti, professor, "Şöhrət" ordenli, "Hacı Zeynalabdin Tağıyev" və "Qızıl Buta" mükafatları laureatı Ramiz Əzizbəylidən gedir.

Ramiz Hacı Ağa oğlu Əzizbəyli 20 iyul 1948-ci ildə Bakı şəhərində anadan olub. Ulu babası Əziz bəy gəmiçiliklə məşğul imiş. Abşeronun böyük bir ərazisində meyvə bağları, Bakıda xeyli mülkləri, dəyirmanları olub. Ramiz Əzizbəylinin atası Təzə Pir məscidindəki ruhani məktəbinin əsasını qoyanlardandır. Bəy nəslinin, böyük var-dövlətin yeganə varisi olan atası Hacı Ağa ömrünün son illərinə qədər 11 uşaqlı ailəsini "Yasin" oxumaqla dolandırıb.

Ramizin 10 yaşı olanda atası dünyasını dəyişib. Ailənin kiçiyi olduğu üçün anası və bacısı ona xüsusi qayğı göstəriblər. Bakıdakı 190 nömrəli məktəbdə təhsil alıb. Məktəbi bitirdikdən sonra sənədlərini Azərbaycan İncəsənət Universitetinə versə də, ixtisas fənnindən kəsilib. İnstituta qəbul ola bilməyən gənc könüllü olaraq hərbi xidmətə getməyi qərara alır. Tiflisdə Hərbi Tibb Məktəbini əla qiymətlərlə bitirdikdən sonra xidmətini Ermənistanın Leninakan şəhərində tibbi-sanitar hissəsinin baş tibb təlimatçısı kimi davam etdirir

Ramiz Əzizbəylinin sənətə gəlişi 1957-ci ildən - 9 yaşından başlayıb. Kiçik yaşlarından televiziya tamaşalarında azyaşlı aktyor kimi çıxış edib. İlk dəfə AzTV-nin Uşaq verilişləri redaksiyasında daimi üzv kimi işləməyə başlayıb.

1959-cu ildə kinostudiyanın dublyaj redaksiyasına cəlb olunub. O vaxta qədər uşaq rollarını da böyüklər səsləndirirərmiş. İlk dəfə uşaq obrazlarını səsləndirməyi ona həvalə ediblər.

Kinostudiyada fəhlə kimi işə başlayan Ramiz Əzizbəyli həm də M.A.Əliyev adına Azərbaycan İncəsənət İnstitutunun Mədəni-maarif fakültəsində qiyabi təhsilini davam etdirir. İnstitutu bitirdikdən sonra aktyor və rejissor kimi fəaliyyət göstərir.

Ramiz Əzizbəyli kino sahəsində fəaliyyətə başladığı müddətdə mindən çox filmin dublyajında iştirak edib, 50-dən artıq filmin mətnini rus dilindən Azərbaycan dilinə çevirib. "Mozalan" satirik kinojurnalının 100-ə yaxın sayında həm aktyor, həm də rejissor kimi əməyi olub. Aktyor olaraq 20-yə yaxın filmdə çəkilib.

1987-ci ildən kinorejissorluq fəaliyyətinə başlayan Ramiz Əzizbəylinin ilk quruluş verdiyi "Pirverdinin xoruzu" qısametrajlı bədii filmi 1988-ci ildə Kiyevdə keçirilən Gənc kinematoqrafçıların XIX beynəlxalq kinofestivalında "Ən yaxşı rejissor işinə görə" mükafata layiq görülüb. 1991-ci ildə ssenari müəllifi və rejissoru olduğu "Bəxt üzüyü" filmi isə onu bir daha tamaşaçılara sevdirib.

Rejissorun 1992-ci ildə çəkdiyi "Bəxt üzüyü" tammetrajlı bədii filmi müasir kino tariximizə yüksək bədii keyfiyyətli və ən yüksək kassa gəliri gətirən film kimi daxil olub. Film Daşkənddə keçirilən Asiya və Latın Amerikası ölkələrinin ənənəvi kinofestivalında xüsusi diploma layiq görülüb. Film yay istirahətində bağa gəlmiş müxtəlif adamların itmiş bəxt üzüyünün axtarışına qoşulub, əslində, cəmiyyətin itirilmiş "bəxtini" axtarmağından bəhs edir.

"Bəxt üzüyü" əsərinin ekran variantı yaranmamışdan əvvəl onun səhnə variantına baxılıb və qiymətləndirilib. İlk dəfə bu əsərə Şəki Dövlət Dram Teatrında çalışan rejissor Hüseynağa Atakişiyev müraciət edib, sonra Sumqayıt Dövlət Dram Teatrı həmin pyesin səhnə variantını tamaşaçılara təqdim edib. "Bəxt üzüyü"nü kinoda əbədiləşdirmək Ramiz Əzizbəylinin ən böyük arzusu olub. Müsahibələrinin birində bu haqda deyib: "Sumqayıt Dövlət Teatrının quruluşunda hazırlanan tamaşa Azərbaycan televiziyası tərəfindən lentə alındığı üçün tez-tez ekran vasitəsilə nümayiş olunurdu. Etiraf etməliyik ki, "Bəxt üzüyü" tamaşası tamaşaçılar tərəfindən böyük maraqla qarşılanmışdı. Kimi tamaşanın siyasi tərəfini qəbul edirdi, kimi lağlağı baxımından maraqla izləyirdi, kimi də "mənim qohumum bu tamaşada oynayır, gedək sən də bax" deyə tamaşaçı toplayırdı. Yəni tamaşaya olan baxışlar, mövqelər müxtəlif idi. Ancaq bizim bu əsərə olan baxışımız, mövqeyimiz, onu kino ekranına gətirməyimiz müəyyən səbəblərlə bağlı idi. Belə ki, keçmiş ittifaqın dağılmağa başladığını kino işçiləri lap tez hiss etməyə başlamışdı. Onu da ən tez hiss edənlərdən biri "Azərbaycanfilm" kinostudiyasının işçiləri idi. "Azərbaycanfilm" baş verən dağıntılara məruz qaldığı bir vaxtda təbii ki, peşəkar kino işçiləri kinostudiyanı tərk etməyə başladılar. Belə bir məqamda bir neçə kino xadimi, o cümlədən mən işçiləri qoruyub saxlamaq məqsədilə tez bir zamanda sponsor axtarışına başladıq. Onu da xüsusilə qeyd etməyi lazım bilirəm ki, mövcud durumda sponsor hesabına çəkilən film elə çəkilib ekrana çıxmalı idi ki, son anda öz pulunu çıxara bilsin. Mən də öz növbəmdə çox fikirləşdikdən sonra belə qərara gəldim ki, ən populyar əsərlərdən biri olan "Bəxt üzüyü"nü ekrana gətirim".

Əgər Azərbaycan kinosunun tarixinə nəzər salsaq, onda görərik ki, bir çox səhnə əsəri sonradan öz ekran həllini də tapıb. Misal olaraq "O olmasın, bu olsun", "Arşın mal alan", "Koroğlu", "Sevil" və digər filmlərin adlarını çəkmək olar: "Yaxşı ki, adlarını sadaladığımız səhnə əsərləri ekrana gətirilib. Və ekran həyatı həmin səhnə əsərlərinin ömrünü uzadıb. Çünki kinonun tarixi uzun bir müddəti əhatə etdiyi kimi, onun auditoriyası da nəhəngdir".

Xalq artisti müsahibəsində onu da qeyd edib ki, filmin çəkilişi planlaşdırılan zaman Vaqif Səmədoğlu kinodan uzaqlaşdığı üçün onun ritmini, nəbzini unutduğunu deyib, ssenari yazmaqdan imtina edib. Bu haqda sonralar rejissor açıqlamasında belə deyib: "Soruşanda ki, bəs mən nə edim? Dedi ki, mən səhnə əsərinin müəllifi kimi sənə çox inanıram və çox arxayınam. Bütün bu işləri götür öz boynuna və öz işinə davam et". Ramiz Əzizbəyli daha sonra qeyd edib: "Mən əvvəllər "Mozalan" üçün kiçik süjetlər, Azərbaycan televiziyasının ovaxtkı əyləncəli proqramlar redaksiyasına hekayələr, səhnəciklər, dramaturji materiallar, hərdən şeirlər yazıb təqdim etmişdim. Qısa bir vaxtda kino üçün lazım olmayan bəzi məqamları ixtisar etmək şərtilə ssenarini yazıb qurtardım. Əsərin siyasi tərəfini bir az gücləndirdim. Söhbət 1991-ci ilin əvvəllərindən gedir. Bu da o deməkdir ki, SSRİ mövcud olsa da, artıq hamı onun dağılmaq təhlükəsi ilə üzbəüz qaldığını bilirdi. Çünki yuxarı təbəqələrdə, yuxarı mərtəbələrdə artıq parçalanma başlamışdı".

Rejissor onu da qeyd edib ki, ssenariyə özünəməxsus əlavələr edib. Əsərdə konkret olaraq baş qəhrəman obrazı - böyük, kiçik rol yoxdur. Bütün rolların hərəsi bir taleyin açarıdır. Sadə olduğu qədər də film maraqlı və mürəkkəb məqamlarla zəngindir. Pioner düşərgə-



si səhnəsi xüsusilə diqqətçəkəndir: SSRİ dövründə pioner düşərgələri əməkçilərin məvacibindən tutulan maddi vəsait hesabına saxlanılırdı. İmperiyanın süqut etməsinə baxmayaraq, pioner düşərgələri fəaliyyətini davam etdirsə də, uşaqların boynunda pioner qalstuku yoxdur. Düşərgədən çəkilən epizod ekranda canlanır, görürük ki, pionerlər sıraya düzülüb, onlardan yalnız bir qızın boynunda səliqə ilə taxılmış qalstuk var. Dəstə rəhbəri ona yaxınlaşaraq "ay qız, camaat partbiletini tullayır e, ölkə dağılır, atan nöş sənə qalstuk bağlatdırıb, ay "zastoy" qızı "zastoy" deyir. Elə ki, dəstə rəhbəri qalstuku qızın boynundan açdırır, bu zaman SSRİ-nin bayrağı xüsusi marş sədaları altında yuxarı qaldırılır və elə həmin məqamda da marş şeypurda çalınan "hopstop" rəqsi ilə əvəz edlir.

Rejissorun 2006-cı ildə çəkdiyi "Yalan" bədii filmi işi Qarabağ müharibəsi mövzusunun ən uğurlu ekran həllindən biri hesab oluna bilər.

Ramiz Əzizbəyli aktyor kimi "Dərviş Parisi partladır", "Şeytan göz qabağında", "Gümüşgöl əfsanəsi", "Kişiləri qoruyun", "Bağ mövsümü", "Bəxt üzüyü", "Bəyin oğurlanması" filmlərində rol alıb.

Ramiz Əzizbəyli Azərbaycan radiosunda "Gəl, səhərim" verilişinin aparıcılarından biri olmaqla, ictimai işlərlə də məşğul olub. O, Yazıçılar Birliyinin üzvü idi. 2010-cu ildə "Cızmaqaralar" adlı bədii yaradıcılıq toplusu işıq üzü görüb.

Ömrünün sonlarını Ramiz Əzizbəyli xəstəliklə mübarizədə keçirib. Xalq artisti üç dəfə insult keçirib, 8 dəfə əməliyyat olunub. O, uzun müddət yüksək qan təzyiqi və şəkər xəstəliyindən əziyyət çəkib. Ramiz Əzizbəyli 9 iyun 2021-ci ildə uzun sürən xəstəlikdən sonra gözünü əbədi olaraq yumub. Sənətkar ümumşəhər qəbiristanlığında dəfn edilib.

Ramiz Əzizbəyli həyatda olmasa da, Azərbaycan kinosunun yaddaşından izi heç vaxt silinməyəcək. O, milli kinomuzu yaşadanlardan, ona can verənlərdən biri idi. Bu gün kino salnaməmizi vərəqlədikcə hər səhifədə onun təbəssümü, baxışı, səmimiyyəti ilə qarşılaşırıq. Ramiz Əzizbəyli bir aktyor kimi doğulmuş, amma bir sənət əfsanəsi kimi yaşamış və elə əfsanə kimi də tarixə düşmüşdür.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Üzeyir bəy Hacıbəylinin 140 illiyinə həsr edilmiş "Leyli və Məcnun" operası təqdim olunub

**Azərbaycan professional musiqisinin banisi, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin 140 illiyinə həsr olunmuş "Leyli və Məcnun" operası Heydər Əliyev Sarayında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının təqdimatında nümayiş etdirilib.**

Teatrdan AZƏRTAC-a bildirilib ki, əsərin budəfəki nümayişi həm bəstəkarın yubileyinə dərin ehtiramın ifadəsi, həm də Azərbaycan musiqi mədəniyyətinin zəngin ənənələrinin təntənəsi kimi təqdim olunub.

Üzeyir bəy Hacıbəylinin şah əsəri sayılan "Leyli və Məcnun" operası ilk dəfə 1908-ci ildə səhnəyə qoyulub və Şərqdə ilk opera kimi tarixə düşüb.

Tamaşada baş rolları Rəvanə Əmiraslanlı (Leyli) və Mirəli Sarızadə (Məcnun) ifa ediblər. Leylinin atası rolunda Taleh Yahyayev, anası rolunda Aytən Məhərrəmova, Məcnunun atası rolunda Mütəllim Dəmirov, anası rolunda Afaq Ağayeva, digər rollarda Fuad Əzizzadə (İbn Salam), Cahangir Qurbanov (Nofəl), eləcə də Nəzər Bəylərov (Zeyd) və Pərviz Verdiyev (Şeyx) çıxış ediblər.



Balet hissələrində Leyli rolunu Məryəm Şabakayeva, Məcnun rolunu Rüstəm Hacıyev, uşaq rollarını Laləzar İbrahimli (Leyli) və Adil Əlizadə (Məcnun) canlandırıblar.

Tamaşanın dirijoru Əməkdar artist Əyyub Quliyev, quruluşçu rejissoru Nicat Kazımov, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi Tehran Babayev, kostyumlar üzrə rəssam Leyla Əliyeva, xormeyster Əməkdar incəsənət xadimi Sevil Hacıyeva, xoreoqraf isə Əməkdar artist Yuriy Lobaçevdir.

Solo tarda Əməkdar artist Elxan Mansurov, kamançada isə Əməkdar artist Elnur Əhmədov müşayiət ediblər.

## İstanbuldakı Cəfər Cabbarlı adına Türkiyə-Azərbaycan Teatrı yubiley mövsümünün açılışını Bəxtiyar Vahabzadəyə həsr edir

**Uzun illərdir İstanbulda mədəniyyətimizi təbliğ edən "Xarıbülbül" Azərbaycan Mədəniyyət Dərnəyinin nəzdindəki Vizyon Teatr Birliyi 10-cu mövsümünün açılışı ilə əlaqədar adını dəyişdirərək, Cəfər Cabbarlı adına Türkiyə-Azərbaycan Teatrı olaraq fəaliyyətini davam etdirəcək.**

Teatrın builki mövsümünün açılışı Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə həsr olunacaq. Bu məqsədlə dərnək İstanbulda ikigünlük geniş proqramla tamaşaçı qarşısına çıxmağa hazırlaşır. Proqrama Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığını əks etdirən sərgi, şairin həyatını və əsərlərindən bəhs edən panel iclas daxildir. Proqram çərçivəsində Bəxtiyar Vahabzadəyə həsr olunan "İstiqlal şairi" sənədli filminin təqdimatı, Cəfər Cabbarlı adına Türkiyə-Azərbaycan Teatrının şairin əsərləri əsasında hazırladığı "Yağışdan sonra" ikipərdəli tamaşasının premyerası da olacaq.

AZƏRTAC olaraq tamaşanın məşqlərini izlədik, qurumun yeni layihələri ilə bağlı məlumat aldıq.

Dərnəyin və teatrın rəhbəri Kamalə Kamal Cabbarova artıq uzun illərdir böyük zəhmətlə ərsəyə gətirdiyi teatrın pərdələrini sənət yolunun 10-cu mövsümünə fəxrlə açmağa hazırlandığını bildirərək deyib: "Bu il eyni zamanda Azərbaycan Milli Teatrının 153-cü teatr mövsümünə də birlikdə qədəm qoyuruq. On ildir ki, mədəniyyətlər arasında körpü quran teatrımız və dərnəyimiz bu yeni mövsümdə də tamaşaçılarına bir-birindən dəyərli və orijinal səhnə əsərləri təqdim edəcək. Yeni mövsümdə sənətsevərləri səhnədə canlanan, qəlblərə toxunan hekayələr, düşündürücü səhnələr və unudulmaz tamaşalarla görüşdürmək üçün hazırıq. Hər yeni tamaşa yeni bir həyəcan, yeni duyğularda birləşmək deməkdir. Builki həyəcanımız isə daha da böyükdür. Həm yubileyimizi qeyd edəcək, həm də dahi Cəfər Cabbarlının adı ilə ilk dəfə səhnəyə çıxacağıq. Bununla yanaşı, açılışımızı geniş proqramla Xalq şairi Bəxtiyar Vahabzadəyə həsr etmişik. Təbii ki, bu, böyük bir məsuliyyət tələb edir".

"Yağışdan sonra" tamaşasının rejissoru Minə Bayrakeri Xalq şairinin yaradıcılığında yer alan bəşəri dəyərləri ən gözəl dillə insanlara çatdırdığını ifadə edərək deyib: "Bəxtiyar Vahabzadənin əsərində bir cəmiyyətin həqiqi zənginliyinin maddi sərvətlərdə deyil, mənəvi və əxlaqi dəyərlərdə olduğu vurğulanır. Tamaşaçıya öz dəyərlərini və müasir cəmiyyətdəki yerini yenidən düşünməyi təklif edir. Ümumilikdə isə insanlığın yaşadığı mənəvi böhranı və kimlik axtarışını bədii bir dillə səhnədə əks etdirir".

Səhnə əsərinin musiqi tərtibatçısı, "Xarıbülbül" Azərbaycan Mədəniyyət Dərnəyi-




nin musiqi bölməsinin rəhbəri, müğənni-aktrisa Vüsalə Əsgərova Xalq şairi Bəxtiyar Vahabzadəni şəxsən tanıdığı üçün özünü çox xoşbəxt hesab etdiyini deyib: "Mən həm bir ifaçı, həm də bir aktrisa kimi xoşbəxtəm ki, Bəxtiyar Vahabzadənin sözlərinə yazılmış mahnıları, o cümlədən ilk müəllimim olan Mirzə Babayevlə "Kəpənək" mahnısını ifa etmişəm. Mənim üçün qürurverici məqamlardan biri də odur ki, Bəxtiyar Vahabzadə kimi bir çox ədəbiyyat xadimimizin kitablarını korrektə və redaktə etmişəm. Bəxtiyar Vahabzadə sadəcə şeirlərində deyil, gündəlik həyatda da daim xalqına, Vətəninə, millətinə, türkçülüyə olan sevgisini vurğulayaraq ifadə edən bir şəxsiyyət idi. Bu hissləri nəinki onun sözlərində, nəfəsində, ruhunda belə hiss etmək olardı".

Dəvət olunduğu "Yağışdan sonra" tamaşasında aktrisa kimi səhnəyə çıxacağını deyən Vüsalə Əsgərova bundan qürur hissi keçirdiyini bildirib.

## "Azərbaycan sağlamlıq turizmi konfransı" keçiriləcək

**Oktyabrın 15-də Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə ikinci dəfə "Azərbaycan sağlamlıq turizmi konfransı" təşkil olunacaq.**

Agentlikdən AZƏRTAC-a bildirilib ki, konfransın məqsədi sağlamlıq turizmi sahəsində fəaliyyət göstərən mütəxəssisləri və xidmət təminatçılarını bir araya gətirərək daha güclü əlaqələrin qurulmasını, səmərəli tərəfdaşlıqların formalaşdırılmasını və Azərbaycanda sağlamlıq və tibbi turizm sahələrində yeni imkanların araşdırılmasını təşviq etməkdir.

Tədbirdə "Rifah" və "Tibbi turizm" mövzularına həsr olunmuş panel müzakirələri keçiriləcək, həmçinin sektorda fəaliyyət göstərən aparıcı şirkətlərin iştirak edəcəyi sərgi təşkil olunacaq.

## Gənc Tamaşaçılar Teatrı tanınmış yazıçı İlqar Fəhminin 50 illik yubileyini qeyd edib

**Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında yazıçı, dramaturq İlqar Fəhminin 50 illik yubileyi keçirilib.**

Teatrdan AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən Xalq yazıçıları Anar, Çingiz Abdullayev, Əməkdar artist Nicat Kazımov yazıçının həyat və yaradıcılığından bəhs ediblər.

Daha sonra İlqar Fəhmi teatrın fəxri mükafatı ilə təltif olunub. Onun yubileyinə həsr olunan "Şah Abbas Namə" tamaşası nümayiş etdirilib.

Tamaşa yazıçı-dramaturq İlqar Fəhminin "Şahnamə" pyesi əsasında hazırlanıb.

Səfəvi-Qızılbaş imperiyasının yüksəliş dövrünə həsr olunan ikihissəli tarixi dramın quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov, quruluşçu rəssamı teatrın baş rəssamı



Mustafa Mustafayev, musiqi tərtibatı Aygül Quliyeva, rejissoru Səbinə Məmmədzadə, rejissor assistentləri Fuad Cavadzadə, Nəsibə Canəliyevadır.

## Qazaxıstanda türk musiqi festivalı

**Qazaxıstanın Kızılorda İncəsənət Mərkəzində "Korkyt Zhane Uly Dala Sazy" (Qorqud və Böyük çölün melodiyaları) beynəlxalq folklor və musiqi festivalının qala-konserti keçirilib.**

AZƏRTAC-ın Kızılorda vilayəti icra orqanının saytına istinadla verdiyi xəbərə görə, festival vilayət qubernatoru və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə təşkil olunub.



Tədbirdə Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Türkiyə, Azərbaycan, Qırğızıstan, Özbəkistandan tanınmış alimlər, tədqiqatçılar, mədəniyyət və incəsənət xadimləri, ziyalılar, ictimai xadimlər, o cümlədən qazaxıstanlı mütəxəssislər iştirak ediblər.

Azərbaycanın "Qarabağ" muğam qrupu milli üslubda mürəkkəb melodik çalarları olan virtuoz ifaları ilə tamaşaçıları heyran qoyub.

Vilayətin qubernatoru Nurlıbek Nalibayev festivalın türk xalqları arasında mədəni əlaqələrin möhkəmləndirilməsi və milli incəsənətin təbliği baxımından əhəmiyyətini vurğulayaraq qardaş ölkələrdən gələn qonaqlara minnətdarlığını bildirib.

Qeyd olunub ki, festival qardaş xalqların birliyinin möhkəmləndirilməsi, onların folklor və musiqi sənətlərinin təbliği, qarşılıqlı mədəni əlaqələrin inkişafı baxımından böyük əhəmiyyətə malikdir.

## "Azərbaycan poeziyasında Fikrət Qoca imzası" adlı metodik vəsait hazırlanıb

**Bu il Azərbaycanın Xalq şairi, Dövlət mükafatı laureatı Fikrət Qocanın anadan olmasının 90 ili tamam olur. Bu münasibətlə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Azərbaycan poeziyasında Fikrət Qoca imzası" adlı metodik vəsait hazırlanıb.**

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, təqdim olunan vəsaitdə Xalq şairi Fikrət Qocanın 90 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamının tam mətni təqdim edilir. Metodik vəsaitdə filologiya elmləri doktoru Baba Babayevin "Sevgidən yoğrulmuş poeziya" adlı məqaləsi, Fikrət Qocanın həyat və yaradıcılığı haqqında qısa məlumat, görkəmli şəxslərin onun haqqında söylədikləri dəyərli fikirlər, "Fikrət Qoca irsinin kitabxanalarda təbliği" başlığı altında görkəmli şairin müəllifi olduğu və onun haqqında qələmə alınan kitabların və digər informasiya daşıyıcılarının kitabxanalarda




geniş təbliği məqsədilə təşkil edilən müxtəlif kütləvi tədbirlərin həyata keçirilməsinə dair tövsiyələr diqqətə çatdırılır.

Vəsaitin hazırlanmasında əsas məqsəd şairin ədəbi irsini geniş oxucu auditoriyasına, xüsusən də kitabxana işçilərinə, tələbələrə və informasiya sahəsində fəaliyyət göstərən mütəxəssislərə sistemli şəkildə təqdim etməkdir.

"Azərbaycan poeziyasında Fikrət Qoca imzası" adlı metodik vəsait kitabxananın rəsmi saytında yerləşdirilib.

# HƏMAS 20 israilli girovu azad etdi

## Əvəzində 1968 fələstinli məhbus sərbəst buraxılır

**HƏMAS iki ildən artıqdır Qəzza zolağında qalan son girovların birinci qrupunu Qırmızı Xaç Cəmiyyətinə təhvil verib. Bu, 2023-cü ilin oktyabrında İsrailə hücumdan sonra Qəzza zolağında başlayan müharibəyə son qoymağa zəmin yaradan sülh sazişinin əsas müddəasıdır. Medianın məlumatına görə, sərbəst buraxılma iki mərhələdə həyata keçirilib - əvvəlcə 7, sonra daha 13 girov.**









İlk 7 girov Qəzza şəhərində Qırmızı Xaç Cəmiyyətinə təhvil verilib - Qali və Ziv Berman, Matan Angrest, Alon Ohel, Omri Miran, Eitan Mor və Qay Gilboa-Dallal. Bazar ertəsi səhər Təl-Əvivin Girovlar Meydanında onların adlarının elan edilməsi gurultulu alqışlara səbəb olub.

Birinci qrupun azad edilməsindən 3 saat sonra İsrail mediası 13 nəfərlik girovlardan ibarət ikinci qrupun Qəzzanın cənubunda Qırmızı Xaç təşkilatına təhvil verildiyini və İsrailə yola düşdüyünü bildirib. Daha sonra İsrail Müdafiə Qüvvələri (İDF) azad edilmiş girovların vətənə gəldiyini və ilkin tibbi müayinədən keçməli olduqları barədə məlumat verib.

Girovların azad edilməsi ABŞ Prezidenti Donald Trampın planı və HƏMAS-a ultimatumu sayəsində mümkün olub. Yeri gəlmişkən qeyd edək ki, Amerika lideri dünən səhər Təl-Əvivə gəlib. D.Trampın təyyarəsini Ben-Qurion hava limanında İsrailin Baş naziri Benyamin Netanyahu və onun həyat yoldaşı, ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff, müşaviri Jared Kuşner və Prezidentin qızı İvanka Tramp qarşılayıblar. ABŞ Prezidenti azad edilmiş girovların ailələri ilə görüşüb və Knessetdə çıxış edib. Sonra Böyük Britaniyanın Baş naziri Kir Starmer də daxil olmaqla təxminən 20 dünya liderinin qatıldığı Sülh sammiti üçün Şarm əl-Şeyxə yollanıb.

Xatırladaq ki, 2023-cü il oktyabrın 7-də də HƏMAS İsraildə 251 nəfəri əsir götürmüşdü. Girovların arasında əcnəbi vətəndaşlar da var idi. Ötən həftə elan edilən atəşkəsdən əvvəl Qəzzada 48 girovun qaldığı, onlardan 20-nin hələ də sağ olduğu bildirilib.

Ölənlərin cəsədləri tanınması üçün ekspertizaya aparılacaq. Yalnız bundan sonra İsrail tərəfi mübadilə üzrə üzərinə düşən hissəni yerinə yetirməyə başlayacaq - İsrail həbsxanalarında saxlanılan 1968 fələstinli məhbus Qəzzaya köçürüləcək.

Mübadilədə hansı tanınmış fələstinlilərin yer alacağı ilə bağlı danışıqlar bazar günü davam edib və HƏMAS 7 yüksəkrütbəli fələstinlinin siyahıya daxil edilməsini istəyib. Konkret olaraq, onlardan biri 2004-cü ildə 5 nəfərin ölümü ilə nəticələnən hücumların təşkilinə görə ömürlük həbs cəzasına məhkum edilmiş Mərvan Barqutidir. Barqutinin azad edilməsi qarşıdan gələn Fələstin Administrasiyasında keçiriləcək prezident seçkilərində qələbəyə iddialı ola biləcək ən nüfuzlu fələstinlilərdən birinin azadlığa buraxılması demək olardı. Azad olunmaq üçün digər mümkün namizədlər arasında 2008-ci ildə 30 il həbs cəzasına məhkum edilmiş Fələstinin Azadlıq Xalq Cəbhəsinin lideri Əhməd Səadət də var.

Sülh müqaviləsinin digər müddəaları isə bütün razılaşmaların yerinə yetirilməsi üçün 72 saatlıq vaxt ərzində keçirilir. Artıq Qəzzaya ərzaq gəlməyə başlayıb. Razılaşmaya əsasən, mübadilədən əvvəlki 3 günün hər birində ərzaq və zəruri ləvazimatlar daşıyan 600 yük maşını Qəzza zolağına buraxılmalıdır.

Sentyabrın əvvəllərində israillilərin şəhərdə yeni hərbi əməliyyat elan etdiyi zaman oranı tərk edən minlərlə insan Qəzzaya qayıtmağa başlayıb. İkiillik müharibə Qəzzanı viran qoyub - BMT-nin hesablamalarına görə, ərazinin ən böyük şəhərindəki binaların dörddəüçü zədələnib və ya dağılıb.

Hələlik sülh planının yalnız ümumi konturları aydındır: Qəzza zolağının təxminən yarısının hələ müəyyən edilməmiş bir müddət ərzində İsrailin nəzarətində qalacağı güman olunur. HƏMAS-ın ərazinin idarə olunmasında birbaşa və ya dolayı rolu olmayacaq, baxmayaraq ki, qrup hələ tərk-silahla bağlı öhdəlik götürməyib. Ərazinin Fələstin texnokratlarından ibarət keçid komitəsi tərəfindən idarə ediləcəyi və Donald Trampın sədrlik etdiyi Sülh Şurasının nəzarəti altında olacağı gözlənilir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Payız - immunitetin sınandığı fəsil

**Mövsüm dəyişiklikləri təkcə təbiətə deyil, insan orqanizminə də təsirsiz ötüşmür. Orqanizmin sınaq dövrü olan payızda hava dəyişkənliyi, qeyri-sabit temperatur, rütubətin artması və günəş işığının azalması bədənin müdafiə sistemini zəiflədir. İnsan özünü yorğun, halsız, depressiv hiss edir, melanxoliyaya meyilli olur. Statistikaya görə, yoluxucu xəstəliklərin artması da məhz bu dövrə, xüsusən də payızın ikinci yarısına təsadüf edir.**



Yayın sonundan etibarən virus infeksiyalarında ümumi artım müşahidə olunur. Mütəxəssislər bu yoluxmaların əksəriyyətinin koronavirus olduğunu düşünürlər. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) son 2-3 ayda ümumi yoluxma hallarının artdığını bildirir. ABŞ Xəstəliklərə Nəzarət mərkəzlərinin məlumatlarına görə, mövcud COVID-19 hallarının əksəriyyəti risk qrupuna daxil olan insanlar üçün daha təhlükəlidir. Virusların ən çox təmas yolu ilə keçdiyini bildirən mütəxəssislər yoluxucu xəstəliklərdən qorunmaq üçün sadə, lakin təsirli tədbirləri xatırladırlar. Soyuq havalarda qapalı məkanlarda daha çox vaxt keçirmək infeksiyaların artmasına səbəb olur. Bu məkanların tez-tez havalandırılması, əl gigiyenasına diqqət edilməsi, riskli səthlər olan qapı tutacaqları, kompüter klaviaturaları və telefonların antiseptiklərlə təmizlənməsi tövsiyə olunur.

Mövsümi sağlamlıq problemlərinin qarşısına almaq, immuniteti qüvvətləndirmək üçün sağlam həyat tərzinə, düzgün qidalanmaya, yuxu rejiminə, fiziki aktivliyə riayət etmək lazımdır. Payız aylarında insanlarda yorğunluq, əhvalın olmaması, təşviş və səbəbsiz narahatlığın müşahidə edilməsi orqanizmdə vitamin və mikroelementlərin çatızmazlığı, günəş işığının defisiti ilə əlaqələndirilir. Bunun qarşısını almaq üçün gündəlik qidalanmada karbohidrat, zülal, yağ balansını təmin etmək, vitamin və minerallarla zəngin olan qidalara üstünlük vermək lazımdır. Əhvali-ruhiyyənin yüksəldilməsi və ümumi olaraq orqanizmin yaxşı çalışması üçün iki mikroelement vacibdir. Bunlardan biri sink, digəri isə maqneziumdur. Payız aylarında sink mikroelementinin çatışmazlığı nəticəsində immun sistemi hüceyrələri öz fəaliyyətini dayandıra bilər. Belə olduqda bədənimizin viruslara qarşı müqaviməti nəzərəçarpacaq dərəcədə azalır. Maqnezium isə vitaminlərin kofaktoru, yəni köməkçi rolunda çıxış edir. Xüsusilə vitamin D-nin sorulmasında, neyromediatorların (neyronlararası bioloji fəal maddələr) mübadiləsində yaxından iştirak edir. Bu mikroelement çatızmazlığı zamanı insanda yorğunluq, zəiflik, yuxu pozğunluğu müşahidə edilir.

Soyuq havalarda bədən günəş şüalarına birbaşa məruz qalmadığı üçün vitamin D defisiti yaranır. Nəticədə taqətsizlik, sümük ağrıları, saçların tökülməsi və dırnaqların qırılması kimi hallar müşahidə olunur. Sağlamlığımız üçün vacib olan C vitamini immun hüceyrələrini yad cisimlərdən qorumaq, B qrupu vitaminləri isə maddələr mübadiləsində aktiv iştirakı ilə yanaşı, ürək-damar sistemini və qan dövranını yaxşılaşdırmaq gücünə malikdir. Mütəxəssislər bildirirlər ki, fəslin dəyişməsi ilə əlaqədar yaranan stres sağlam insanlara da mənfi təsir göstərir. Bu dəyişiklik əhvalımıza təsir edir və bizi yüngül narahatlıq və melanxoliya vəziyyətlərinə məruz qoyur.

Payız və qış aylarında immunitetin ən böyük dayağı düzgün qidalanmadır. Meyvə-tərəvəzlər - xüsusilə C vitamini ilə zəngin portağal, narıngi, kivi, alma, itburnu və brokkoli - orqanizmi infeksiyalardan qoruyan əsas qalxandır. Balqabaq, kök, çuğundur kimi beta-karotin mənbələri isə hüceyrələri yeniləyir. Sarımsaq, zəncəfil, bal, limon kimi təbii antibiotikləri süfrədən əskik etməmək vacibdir. Bundan əlavə, balıq, qoz və kətan toxumunun tərkibində olan omeqa-3 yağ turşuları immun sistemini balansda saxlayır. Qida rasionuna probiyotik mənbəyi olan qatıq, kefir və pendir kimi süd məhsullarının əlavə edilməsi də vacibdir. Orqanizmi zəiflədən yağlı, qızardılmış və konservləşdirilmiş məhsullardan, siqaret və spirtli içkilərdən isə uzaq durmaq məsləhətdir. Gündə 2-2,5 litr su içmək selikli qişaları nəm saxlamağa kömək edir və toksinləri təmizləyir. Bu aylarda susuzluq hiss etməmişdən əvvəl su içmək vərdiş edilməlidir.

Gecə yuxusu insan orqanizminin bərpa mərhələsidir. Hər gecə 7-8 saatlıq fasiləsiz yuxu həm immuniteti, həm də psixoloji tarazlığı qoruyur. Axşam saatlarında ekran qarşısında çox qalmaq, sosial şəbəkələrdə çox dolaşmaq yuxu keyfiyyətini pozur. Onun yerinə sakit musiqi, isti çay, ya da kitab bədənin ritmini təbiətin ritmi ilə uyğunlaşdırmağa kömək edir. Hər gün 30 dəqiqəlik gəzinti, yüngül idman və ya evdə edilən sadə hərəkətlər qan dövranını yaxşılaşdırır, bədənin istilik balansını qoruyur, hormon sistemini aktivləşdirir, rahat yuxunu təmin edir.

Bəzən insan immunitetin zəifləməsini yalnız soyuqdəymə və ya qidalanma ilə əlaqələndirir. Amma emosional gərginlik və stres də bədən müdafiəsini aşağı salan ən önəmli faktorlardandır. Rahatlıq, pozitiv düşüncə, ailə və dostlarla ünsiyyət, sevilən məşğuliyyətlər orqanizmin "psixoloji peyvəndi" rolunu oynayır. Mütəxəssislərin tövsiyələrinə riayət edərək payız mövsümünü xəstələnmədən, sağlam, enerjili və gümrah başa vura bilərik.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**



RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

№ 219 (9964) 11 oktyabr 2025-ci il ŞƏNBƏ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

XXI əsr türk əsrinə çevrilir
İlham ƏLİYEV: "Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və arazi bütövlüyünün əsas amilidir"

Azərbaycan MDB məkanında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə töhfəsini verir

Azərbaycan-Rusiya münasibətlərində yeni səhifə

Türk yolu olan Orta dəhliz dünyanın ümidinə çevrilib

Bu həm enerji layihəsi, həm də qarşılıqlı etibar idi

44 günlük Vətən müharibəsi
Düz 5 il əvvəl həmin gün

azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Ailələrin çətin həyat şəraitinə düşməsinin qarşısının alınması məqsədilə valideynlərin məsuliyyətli valideynlik bacarıqlarının artırılması mövzusunda maarifləndirmənin təşkili" (təkrar) adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 28 oktyabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 29 oktyabr 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili - 5036)**

***Müsabiqə komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Müvafiq qanunvericiliyə əsasən imtiyazlı kateqoriyadan olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" (təkrar) adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 28 oktyabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 29 oktyabr 2025-ci il saat 11:30-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayevə əzizi

**ADƏM MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayevə əzizi

**ADƏM ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Professor Qəzənfər Paşayev Rövnəq Abdullayevə əzizi

**ADƏM MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi nazir müavini Rövnəq Abdullayevə əzizi

**ADƏM ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Rövnəq Abdullayevə əzizi

**ADƏM ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun rəhbərliyi və iş kollektivi institutun direktoru Aynur Poluxovaya anası

**AYNA ƏSGƏR QIZI HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4092
Sifariş 2055

Qiyməti 60 qəpik